QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Birinci vitse-prezident Mehriban Əliyeva Bakıdakı 1 saylı körpələr evində və 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olub**



4

SƏS

№ 062 (7230)

16 aprel 2025-ci il.
Qiyməti 60 qəpik

# Qlobal məsələlərin müzakirə olunduğu unikal platforma



2

# Artıq çoxdan başlayan DÜNYA TİCARƏT MÜHARİBƏSİ




3

**Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının növbəti iclası keçirilib**



4

**Səs siqnallarından əhalinin narazılıqlarını eşitməmək üçün necə istifadə etmək lazımdır?**



10

**Bir milyard ölüm gözlənilir**



11

**Evdən qaçdı, bəs sonra?**



15

**İçməməli su: Əhali təhlükə qarşısında**



8

# Qlobal məsələlərin müzakirə olunduğu unikal platforma



Qlobal çağırışlarla bağlı müzakirələrin aparıldığı və onların həlli yollarının tapılması kimi məsələlərdə dünyanın aparıcı platformalarından biri olan Antalya Diplomatiya Forumu növbəti dəfə əhəmiyyətli hadisələrlə yekunlaşıdı. 20-dən çox dövlət və hökumət başçısı, 70-dən artıq nazir olmaqla ümumilikdə 140 ölkədən 450-dək yüksəksəviyyəli nümayəndənin iştirak etdiyi IV Antalya Diplomatiya Forumuna ev sahibliyi edən Türkiyə təkcə geosiyasi məsələlərin deyil, bəşəri problemlərin də müzakirə olunduğu məkan olaraq diqqət mərkəzində oldu. Üç gün davam edən Forumda irqçiliklə mübarizə, qadın hüquqlarının qorunması kimi bir çox bəşəri məsələlər müzakirə edildi. Tədbir əsnasında bir çox ikitərəfli görüşlər, panellər, toplantılar keçirildi. İştirakçılar da öz baxışları çərçivəsində dünyanın müxtəlif bölgələrindən olan həmsöhbətləri ilə görüşmək imkanı əldə etmiş oldular. Qeyd olunanlar Forumun birləşdirici gücünü bir daha ortaya qoymuş oldu. Prezident İlham Əliyev "Bu tədbir beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biridir", - deyə bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılışında iştirak ediblər. Tədbirdə bir çox qlobal hadisələrlə yanaşı, Cənubi Qafqazdakı son vəziyyət, Azərbaycanla Ermənistan arasında imzalanacaq Sülh sazişi, Qərbi Azərbaycan və Qərbi azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıdışı, iqlim dəyişikliyi ilə mübarizədə ölkəmizin rolu, o cümlədən Bakıda keçirilən COP29, Türk Dövlətləri Təşkilatının fəaliyyəti kimi ölkəmizi maraqlandıran məsələlər də müzakirə edilib.

### DÜNYADAKI BÖHRANLARIN HƏLLİNƏ DİPLOMATİYA VASİTƏSİLƏ TÖHFƏ

Antalya Diplomatiya Forumunun əsas məqsədi dünyada baş verən böhranların həllinə diplomatiya vasitəsilə töhfə verməkdir. Tədbir əsnasında bir çox ikitərəfli görüşlər, panellər, toplantılar keçirilib. İştirakçılar da öz baxışları çərçivəsində dünyanın müxtəlif bölgələrindən olan həmsöhbətləri ilə görüşmək imkanı əldə ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Antalyada Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşüb. Söhbət zamanı Alen Bersenin COP29 çərçivəsində ölkəmizə səfəri və onun Azərbaycan Prezidenti ilə görüşü məmnunluqla xatırlanıb. COP29 zamanı qlobal iqlim gündəliyi ilə bağlı vacib qərarların qəbul olunduğu bir daha diqqətə çatdırılıb. COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamıdır. İqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq COP29 çərçivəsində Azərbaycan gündəliyinin yaşıl enerji ilə bağlı olmasını bir daha sərgilədi. COP29-un Bakıda təşkil edilməsi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırır. COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin sosial, iqtisadi və ekoloji inkişafına töhfə verən strateji əhəmiyyətli bir addımdır. Görüşdə Azərbaycan ilə Avropa Şurasının icraedici strukturları arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

### AZƏRBAYCANDAN SURİYAYA DƏSTƏK

Azərbaycan Prezidenti İlham Əliyevin Antalyada Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü zamanı dövlət başçımız Suriyada baş vermiş dəyişikliklərlə əlaqədar məmnunluğunu bildirərək, bununla bağlı Əhməd Əl Şaraanı təbrik edib. Dövlətimizin başçısı bildirib ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib. Prezident İlham Əliyev Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində Azərbaycanın iştirak etməyə hazır olduğunu qeyd edib. Əhməd Əl Şaraa Azərbaycan tərəfinin dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. O, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd edib. Suriyada sabitliyin bərpası üçün əlindən gələni etdiyini deyən Əhməd Əl Şaraa bununla belə xarici amillərin bu məsələyə təsirindən narahatlığını vurğulayıb. Görüşdə, eyni zamanda, Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunulub. Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli rəsmi nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi ilə bağlı razılıq əldə olunub. onu da bildirək ki, dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət edib.




### QARŞILIQLI MARAQ DOĞURAN FİKİR MÜBADİLƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Antalyada Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşü zamanı Azərbaycanla Gürcüstan arasında dostluğun və strateji tərəfdaşlığın tarixi xarakter daşıdığı qeyd olunub. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb. Bu ilin yanvarında Azərbaycana işgüzar səfərini və səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşlərini məmnunluqla xatırlayan Gürcüstanın Baş naziri həmin görüşlərdə ölkələrimiz arasında iqtisadi-ticari, mədəni və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə, bununla bağlı aidiyyəti dövlət qurumlarına verilən tapşırıqların icrası istiqamətində görülən işlərə toxunub. İrakli Kobaxidze Prezident İlham Əliyevin bir neçə gün əvvəl ADA Universitetində beynəlxalq forumda çıxışı zamanı ikitərəfli əlaqələrimizə dair söylədiyi fikirlərin Gürcüstanda çox böyük maraqla qarşılandığını bildirib. Dövlətimizin başçısı hazırda dünyada cərəyan edən təlatümlü şəraitdə Azərbaycan və Gürcüstanın birliyinin, həmrəyliyinin vacibliyinə toxunaraq Cənubi Qafqaz bölgəsində regional məsələlərin məhz region ölkələri tərəfindən həll olunmasının vacibliyini qeyd edib.

### AZƏRBAYCAN DÜNYA SİYASƏTİNDƏ MÜHÜM SÖZ SAHİBİDİR

Forum çərçivəsində növbəti dəfə Azərbaycan-Türkiyə arasındakı müxtəlif sahələri əhatə edən, o cümlədən Türk Dövlətləri Təşkilatı (TDT) daxilindəki münasibətləri ətraflı şəkildə müzakirə etmək imkanı əldə olunub. Aprelin 11-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilərək Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib. Dövlətimizin başçısı Antalya Diplomatik Forumuna dəvətə görə Türkiyə Prezidentinə təşəkkürünü bildirərək, bu tədbirin beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biri olduğunu deyib. Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Antalya Diplomatik Forumunda iştirakı təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi və sülh təşəbbüslərinin irəlilədilməsi baxımından mühüm hadisəyə çevriləcək.

### ÖZÜNƏMƏXSUS ƏMƏKDAŞLIQ MODELİ

İctimai-siyasi cəhətdən sabit, iqtisadi cəhətdən dinamik inkişaf edən, beynəlxalq miqyasda yüksək imicə sahib olan Azərbaycan dünyada söz sahibinə çevrilib. Milli maraqlarını hər zaman qoruyan ölkəmizin beynəlxalq miqyasda özünü təsdiqləməsi, irimiqyaslı layihələrin müəllifi kimi çıxış etməsi Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasətinin təzahürüdür. Xarici siyasətini beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında quran Azərbaycan müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, İslam Konfransı Təşkilatına digər təşkilatlara üzv olaraq beynəlxalq səviyyədə əməkdaşlıq münasibətlərinin qurulmasına nail olub. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövründə beynəlxalq əməkdaşlığa mühüm töhfələr verib. Azərbaycan TDT-nın da ən fəal üzvüdür. IV Antalya Diplomatiya Forumu çərçivəsində "Türk Dövlətləri Təşkilatı: Özünəməxsus bir əməkdaşlıq modeli" mövzusunda panel iclas keçirilib. Forumda, həmçinin TDT çərçivəsində gedən proseslər, o cümlədən təşkilatdan gözləntiləri əks etdirən panel müzakirəsi də aparılıb. Azərbaycan üçün ən önəmli təşkilatlardan olan TDT-in bu yaxınlarda Macarıstanda növbəti, qeyri-rəsmi Zirvəsinin keçirilməsi planlaşdırılır. Bu ilin payız aylarında isə Bakıda TDT-nin rəsmi Zirvə görüşünün təşkili nəzərdə tutulur.

TDT-nin irəli sürdüyü təşəbbüslərin regional və qlobal çağırışlara necə töhfə verəbiləcəyi ətrafında müzakirələr aparılıb. İştirakçılar təşkilatın geosiyasi mühitin formalaşmasındakı artan rolunu təhlil ediblər. Bu təşkilat İstanbulda keçirilən Zirvə görüşü ilə tamamlanaraq 170 milyondan artıq insanı əhatə edən coğrafiyanın hədəflərinə fokuslanıb. Prezident İlham Əliyevin bu forumda iştirakı bir daha göstərir ki, Azərbaycan yalnız regionda deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi qəbul edilir. Dövlətimizin başçısının beynəlxalq münasibətlər sahəsində zəngin təcrübəsi, strateji baxışları və praqmatik yanaşmaları onu beynəlxalq platformalarda böyük maraqla qarşılanan Liderə çevirib. Göründüyü kimi, kimi, Forum müxtəlif ölkələrdən nüfuzlu siyasətçiləri, dövlət və hökumət başçılarını, xarici işlər nazirlərini bir araya gətirərək, son illər ərzində region üçün əhəmiyyət kəsb edən ən önəmli məsələlərin və çağırışların müzakirəsi baxımından çox vacib beynəlxalq platformaya çevrilib.

***Zümrüd BAYRAMOVA***

# Artıq çoxdan başlayan DÜNYA TİCARƏT MÜHARİBƏSİ

*Çinlə ticarət müharibəsinin ABŞ-a ağır zərbə vuracağı proqnozlaşdırılır. Bu isə, ən azından onu deməyə əsas verir ki, dünya ticarət müharibəsi artıq etiraf edilir. Əks halda, Amerika və Çinin ticarət müharibəsi ilə bağlı nəinki proqnozlar, hansısa fikirlər belə bildirilməzdi. Məsələ burasındadır ki, ABŞ və Çin olmaqla, bu iki ölkə arasında olan iqtisadi mübarizənin qlobal xarakter aldığı nəzərə alınaraq, dünya ticarət müharibəsi hesab olunur.*




## ABŞ və Çin olmaqla, iki ölkə arasında münasibətlərin hansı dərəcədə mürəkkəb olduğu, dünya ticarət müharibəsinin başladığı göz önündədir

Bəllidir ki, ABŞ-ın Çinlə mürəkkəb münasibətləri var. Bu mürəkkəb münasibətlər özünü bir neçə istiqamətdə göstərməkdədir. Belə davam edəcəyi təqdirdə, hələ daha da mürəkəbləşəcəyi gözlənilir. Bildiyimiz kimi, Tramp əvvəlcə çinli iş adamı Li Ka-şinqdən iki əsas Panama limanını almağa razılaşdığını açıqlamışdı. Bəli, çinli həmin iş adamı artıq qocalıb və 96 yaşı olan bu iş adanının, biri Panama kanalının girişində, digəri isə çıxışında olmaqla, iki limanı var və o həmin limanları Amerikanın "BlackRock" şirkətinə ucuz qiymətə, cəmi 23 milyard dollara satacaqdı. Hətta razılaşmanın aprelin 2-nə planlaşdırıldığı da məlum idi. Məsələ burasındadır ki, təyin olunan tarixdən artıq on gündən də artıq vaxt keçib və hələ də razılaşma ilə bağlı heç nə yoxdur. Maraqlıdır ki, niyə? Bax elə bu sual özü-özlüyündə bir çox məqamlara aydınlıq gətirilməsi üçün kifayət edir və ABŞ, Çin olmaqla, iki ölkə arasında münasibətlərin hansı dərəcədə mürəkkəb olduğunu, eləcə də dünya ticarət müharibəsinin artıq çoxdan başladığını göstərir.

Bir çox mənbələrin yaydığı məlumata görə, Çin hökuməti haqında qeyd edilən qoca iş adamı Li Ka-şinqin fondu ilə bütün işlərin effektiv şəkildə bağlanmasını, dayandırılmasını əmr edib. Hədələr də özünü çox gözlətməyib. "Böyük Yolun tikintisinə mane olmayın", mesajı da verilib. Buna cavab olaraq ABŞ-ın müdafiə naziri Heqset də öz növbəsində Panama kanalı ərazisini "qorumaq" üçün gəmilər göndərib. Ardınca da Çindən gələn mallara 145 faiz rüsum tətbiq edilib. Çin də öz növbəsində Amerika mallarına 125 faizlik tariflər tətbiq edib. Beləliklə, bütün Çin-Amerika dövriyyəsi sadəcə olaraq sıfıra enməyə başlayıb. Heç şübhəsiz ki, son günlər artıq faizlər hər iki tərəfdən tez-tez qaldırılır və məhz bu baxımdan faizlə bağlı qeyd olunan rəqəmlər indi artıq səhv ola bilər. Çox güman ki, Pekin və Vaşinqton artıq faiz məsələsində yeni rəqəmləri tətbiq edib. Bax elə məhz bu məqam özü qlobal iqtisadiyyat üçün üçüncü dünya müharibəsi kimidir.

## ABŞ Çini qlobal rəqib hesab etməməklə yanlışlığa yol verib

Pekini Moskvadan "qoparıb" sosialist düşərgəsinin iki ən böyük ölkəsini parçalaya bildiyini zənn edən rəsmi Vaşinqton bu vaxta qədər məhz çox məmnun olub, özündən də razı qalıb. Yəqin, ABŞ elə hesab edib ki, bu, güc balansını dəyişib və amerikalılara "Soyuq Müharibədə" qalib gəlməyə kömək edib. İndi real mənzərə onu göstərir ki, amerikalılar yanlış düşünüblər. Çünki hər işdə iqtisadi qazanc hesablayan çinlilər amerikalıların bir fabrikin ardınca digər fabrik qurmasına və iqtisadiyyatlarına getdikcə daha çox dollar tökməsinə baxmaqdan bu müddət ərzində sadəcə, həzz alıblar. Amerikalılar isə Çini qlobal bazarda rəqib kimi heç qəbul da etməyiblər. Bax elə hazırki məqamda ən böyük yanlışlıq da bu hesab olunur.

"Çin öz təsirini xaricə yaymağa çalışacaq bir dünya gücü hesab edilə bilməz", deyə düşünənlər indi səhv etdiklərinin fərqindədirlər. Çünki hər şey tam əksinə oldu. Bəli, tam əksinə oldu və Çin qlobal super gücə çevrildi. İndi artıq super gücə çevrilən Çin məhz ABŞ bazarını ələ keçirməyə istiqmət götürüb. Bu reallıqdır və bu reallığı dərindən başa düşən, qəbul da edən ABŞ lideri çox maraqlı fikirlər də səsləndirib. "Çin illərdir bizi aldadır və bizdən qazanc əldə edir, amma bu, ədalətli deyil!", deyərkən qəzəbini gizlədə bilməyən Donald Tramp əslində, reallıqları etiraf edib. İllərdir Çinin onları aldatdığını deyən ABŞ prezidenti öz ölkəsinin Çini qlobal rəqib hesab etməməkdə yanlışlığa yol verdiyini bildirmiş olub.

## Aldatma cəhdi ABŞ üçün əks nəticə verdi və Vaşinqton bunu başa düşdükdə artıq ticarət müharibəsi başladı

Əslində, reallıq budur ki, ilk öncə aldatmağı planlaşdıran amerikalılar özləri olublar və niyyət də məhz Çini aldatmaq olub. Orada "koloniya" yaratmaq, mallarını da ucuz qiymətə "çıxarmaq" istəyi məhz aldatmaq planına daxil imiş. Məsələ burasındadır ki, ABŞ-ın özü, aldadılmağa məruz qalıb. Zəhmətkeş çinlilər Amerikanı öz məhsulları ilə doldurmağa başlayıblar və bununla da vəziyyət kökündən dəyişib. "Made in China" işarəsinin ABŞ sakinlərinin, amerikalıların istifadə etdikləri demək olar ki, hər şeydə olduğunu Vaşinqton başa düşdükdə ticarət müharibəsi artıq başlayıb. İndi davam edən həmin müharibədir və ticarət müharibəsi getdikcə daha da şiddətli şəkil almaqdadır. Artıq elə bir şəkil alıb ki, buna iki ölkə arasındakı ticarət müharibəsi kimi baxmaq olmaz və bu, elə dünya ticarət müharibəsi sayılır.

Etiraf edilir ki, Çin hazırda tosterlərin və zəngli saatların 100 faizini, oyun konsollarının 90 faizini, iPhone telefonlarının 80 faizini və ən böyük hipermarketlər şəbəkəsi olan Walmart-da satılan malların 70 faizini ABŞ üçün özü istehsal edir. Maraqlıdır ki, tariflər tətbiq edildikdən sonra bəs nə baş verəcək? Sözsüz ki, Amerikada mütləq hər şey 70-80 faiz bahalaşacaq. Əgər Çin üçün bu itkilər bir növ, kompensasiya olunursa və bu mallar harasa istiqamətləndirilə bilirsə, deməli, o zaman ABŞ üçün bu, daha ağır zərbə sayıla bilər. Hər halda, "zərbə" barədə qənaətə gəlinirsə, deməli, söhbət artıq müharibədən gedir və qeyd olunanlar eyni ilə üçüncü dünya müharibəsi kimidir, deyilirsə, belə çıxır ki, dünyanı əhatə edən dünya ticarət müharibəsi çoxdan başlayıb.

## Dollar adi bir yaşıl kağız parçasına çevrilə bilər və bunun zarafat olmadığını başa düşənlər ehtiyat edirlər

Pentaqon məhz iki cəbhə istiqamətində kifayət qədər gücə malik olmadığından çox narahatdır və bunlardan ən əsası Çindir. Çünki çinlilər müdafiə sənayesində də kifayət qədər "fərqli" işlər görüblər və müsbət istiqmətdə fərqlənirlər. "Çin bizim müdafiə sənayemizi məhv etdi. Amerika özünü qorumaq üçün lazım olan materialları istehsal edə bilmir, çünki Çin tədarük zəncirini oğurlayıb", deyən Ağ Ev rəhbərinin müavini Stefan Miller məhz bu istiqamətdə də Amerikanın ehtiyat etdiyini, hətta qorxduğunu etiraf etmiş olub. Elə məhz Miller özü hamıdan yaxşı bilir ki, Çin Amerika Birləşmiş Ştatlarından daha çox oğurlayıb. Yaxşı bilir ki, vaxtilə onlara verilən məşhur Amerika nəzarətsiz istehlak cəmiyyəti Çin tərəfindən artıq çoxdan oğurlanıb.

Hər kəs indi Çinin məhz ABŞ Xəzinədarlığı istiqrazlarını belə satmağa başlamaq qərarını da gözləyir. Özü də böyük təlaşla gözlənilir. Yeri gəlmişkən, diqqətə çatdıraq ki, aldığı ABŞ istiqrazlarının sayına görə Çin məhz Yaponiyadan sonra ikinci ölkədir və istiqrazların 761 milyard ABŞ dolları həddində dəyəri var. Əgər onlar atılsa belə, dollar adi bir yaşıl kağız parçasından başqa bir şey olmayacaq. Bəli, həqiqətən də bu artıq zarafat deyil və heç amerikalılara da zarafat gəlmir. Çünki nə demək olduğunu yaxşı başa düşürlər və buna görə elə ehtiyat da edirlər.

Bəli, Çin rəqəmsal valyutalardan istifadə edərək, məsələn, Rusiyadan neft alır. Bunu digər istiqamətlərdə də tətbiq edə bilər. Ona görə də dollar böhranı çinlilər üçün xüsusilə qorxulu deyil. Lakin belə vəziyyətdə olan amerikalılar üçün yeganə çıxış yolu Çinə qarşı hərbi zərbə endirmək, genişmiqyaslı müharibəyə başlamaq ola bilər. Məsələ burasındadır ki, Amerika bu müharibəyə başlaya bilməz və bunu amerikalılar da yaxşı bilirlər. Bu barədə ABŞ Milli Müdafiə Strategiya Komissiyasının hesabatında da deyilir. Xüsusilə bəllidir ki, ABŞ-ın Çinə qarşı müharibə aparmaq üçün kifayət qədər silahı belə yoxdur. Heç kim nüvə raketləri atmaq istəmir və Birləşmiş Ştatlar adi müharibəyə sırf maliyyə resursları nöqteyi nəzərindən də tab gətirə bilməz, hansıki hesabatda da bu öz əksini tapır. "Çinin blokadasından ABŞ-a dəyə biləcək iqtisadi zərər, iqtisadçıların hesablamalarına görə, 1,5 trilyon dollar təşkil edəcək. Bu, ABŞ-ın bütün hərbi büdcəsindən bir yarım dəfə çoxdur", deyə həmin hesabatda, həmin sənəddə qeyd olunur.

Tramp özü də yaxşı bilir ki, ölkəsi üçün Çinlə müharibə onun öz ölkəsinin yoxsullaşması deməkdir. Ona görə də bu məqamda başa düşürük ki, nəhəng tariflər və hərbi gəmilərin gəlişi sadəcə olaraq, danışıqlarla bağlı məhz Çinə "xüsusi dəvət" deməkdir. Maraqlı olan odur ki, görəsən, həmin "dəvət" qəbul olunacaqmı və bu dəfə Çin ABŞ-a necə cavab verəcək? Ümumiyyətlə, Si Cinpin məhz Trampın nəyə ehtiyac duyduğunu nəzərə alaraq, ona cavab verəcəkmi? Yüksək çinli siyasətçilər hesab edirlər ki, Si Cinpinq bu dəfə Trampa tamamilə "gözlənilməz bir cavab" verə bilər. Ola bilsin ki, məhz dünya ticarət müharibəsinə uyğun bir şəkildə cavab verilər...

***İnam Hacıyev***

# Birinci vitse-prezident Mehriban Əliyeva Bakıdakı 1 saylı körpələr evində və 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olub







***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 15-də Bakının Nəsimi rayonunda yerləşən 1 saylı körpələr evində və Nizami rayonundakı 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olublar. 1 saylı körpələr evində hazırda 3 yaşadək 63 uşaq var. Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mütəmadi surətdə burada olur, körpələrin sağlamlıqları, onların yaşayış şəraiti ilə daim maraqlanır, balacalara xüsusi qayğı ilə yanaşırlar.***

Qeyd edək ki, körpələr evinin 1930-cu ildə tikilən binasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir və yenidənqurma işləri aparılıb. 2015-ci il mayın 10-da Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə körpələr evinin açılışı olub.

Daim nəcib təşəbbüsləri ilə seçilən Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların fiziki və mənəvi cəhətdən sağlam yetişməsinə, onların savadlı olmasına xüsusi diqqətlə yanaşır. Beləliklə, gələcəyimiz olan uşaqlarla bağlı Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir. Sonra Birinci vitse-prezident Mehriban Əliyeva və Leyla Əliyeva 1 saylı uşaq evi sosial xidmət müəssisəsində oldular. Birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva bu müəssisəni də tez-tez ziyarət edir, bayram günlərində buranın sakinləri ilə görüşür, onları hədiyyələrlə sevindirirlər. Hazırda 1 saylı uşaq evi sosial xidmət müəssisəsində 3 yaşdan 18 yaşadək 100 uşaq var. Onların təhsil alması, idmanla məşğul olması və sağlamlıqlarının təmin edilməsi üçün burada hər cür şərait yaradılıb. Müəssisənin sakinləri sevimli qonaqları olan birinci xanım Mehriban Əliyeva və Leyla Əliyevanı həmişə şeir, mahnı və ədəbi proqramla qarşılayıblar. Bu dəfə də istisna olmadı.

Heydər Əliyev Fondu yarandığı gündən bu müəssisəni diqqətdə saxlayır, burada yaşayan yeniyetmələrin ali təhsil müəssisələrində oxuması, onların işlə təmin edilməsi, peşə vərdişlərinin aşkara çıxarılması istiqamətində mühüm işlər görür. Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir olunan bu müəssisənin açılışı 2005-ci ildə Azərbaycanın birinci xanımının iştirakı ilə olub. 2017-ci ildə isə buranın iki sakini ailə həyatı qurub. Onların toyu Heydər Əliyev Fondu tərəfindən təşkil edilib, gənclərə mənzil və avtomobil hədiyyə olunub.





# Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının növbəti iclası keçirilib

Dünən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının növbəti iclası keçirilib. Əvvəlcə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov iclasın gündəliyində duran məsələ - "2026-2030-cu illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın layihəsi barədə Şura üzvlərinə məlumat verib. Bildirib ki, rəsmi statistika məlumatlarının beynəlxalq müqayisəliliyinin təmin edilməsi üçün milli statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi və dünya statistika sisteminə inteqrasiyası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə onun rəhbərliyi ilə başlanmış və sonrakı illərdə uğurla davam etdirilən islahatlar rəsmi statistikanın da inkişafına güclü təkan vermiş, statistika sisteminin hüquqi bazası yaradılmış, bu sahədə ardıcıl olaraq icra edilmiş 6 dövlət proqramı çərçivəsində milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara olan tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, sahibkarların üzərinə düşən statistik yükün azaldılması, rəsmi statistika istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, metaməlumatların işlənilməsi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətlərində mühüm tədbirlər görülmüşdür. T.Budaqov vurğulayıb ki, qeyd olunanlarla yanaşı Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", qəbul edilmiş müxtəlif dövlət proqramları və strategiyalar üzrə qarşıya qoyulmuş hədəflərə, habelə dayanıqlı inkişaf məqsədlərinə nailolma vəziyyətinin statistik qiymətləndirilməsi, artan istifadəçi tələbatının qarşılanması, eləcə də beynəlxalq müqayisəliliyin təmin olunması üçün tətbiq olunan statistik metodologiya, təsnifat və digər standartlarda baş verən dəyişiklik və təkmilləşmələr rəsmi statistikanın inkişafı ilə bağlı yeni strateji hədəflərin müəyyənləşdirilməsini və reallaşdırılmasını şərtləndirir. Bu məqsədlə hazırlanmış "2026-2030-cu illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın layihəsinə iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə statistik göstəricilər sisteminin, metodologiyaların hazırlanması və təkmilləşdirilməsi, müşahidələrin aparılması, əldə edilən statistik məlumatların yayımı, ümumilikdə rəsmi statistika qarşısında duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası məqsədilə statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, habelə milli statistika sisteminin növbəti çoxillik dövr üzrə strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi məsələləri daxil edilib.

Daha sonra Komitə sədrinin müavini Yusif Yusifov Statistika Şurasının üzvlərinə Dövlət Proqramının strukturu, hədəf göstəriciləri və prioritet istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd olunub ki, layihəyə ümumilikdə 42, o cümlədən sosial, iqtisadi və çoxsahəli statistika sahəsində müşahidələrin təşkili və onlara dair metodologiyaların təkmilləşdirilməsi üzrə 24, rəsmi statistika istehsalının hüquqi və informasiya təminatı üzrə 4, beynəlxalq əməkdaşlıq üzrə 3, maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi üzrə 8, milli statistika sisteminin strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi üzrə 3 tədbir daxil edilib. Sonra Statistika Şurasının üzvləri əvvəlcədən onlara təqdim edilmiş Dövlət Proqramı layihəsi ilə bağlı öz müsbət fikirlərini bildirmiş, sənədin qanunvericiliyin tələblərinə uyğun hazırlandığını, beynəlxalq trendlər nəzərə alınmaqla növbəti dövr üçün milli statistika sistemi qarşısında duran vəzifələri əhatə etdiyini qeyd edərək onun aidiyyəti üzrə təqdim olunmasını məqsədəuyğun hesab etmişlər.

# Pavel Klaçkov: "Azərbaycan Prezidenti müdrik siyasət aparır və dünyada ölkəsinin nüfuzunu artırır"

***Tanınmış politoloq, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin filial direktoru Pavel Klaçkov "Moskva-Baku" portalına müsahibəsində Rusiya ilə Azərbaycan arasında intensiv əlaqələri şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Pavel Vladimiroviç, ötən həftələr Rusiya-Azərbaycan münasibətlərində intensiv təmaslarla yadda qaldı. Rusiya və Azərbaycan Xarici İşlər nazirliklərinin rəhbərləri diplomatik münasibətlərin qurulmasının ildönümü münasibətilə bir-birlərini və ölkələrini səmimi qəlbdən təbrik ediblər. Azərbaycan Prezidentinin nümayəndəsi Xələf Xələfov Moskvaya səfər edib və Rusiyanın paytaxtında Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri, eləcə də onun iki müavini ilə ayrı-ayrılıqda danışıqlar aparıb. Antalya Diplomatik Forumu çərçivəsində Sergey Lavrov azərbaycanlı həmkarı ilə də danışıqlar aparıb və digər məsələlərlə yanaşı, İlham Əliyevin mayın 9-da Moskvaya səfərinə hazırlıq müzakirə olunub. Bundan başqa, Rusiya prezidentinin xüsusi nümayəndəsi Şvıdkoy Bakıda olub, orada Azərbaycan teatr xadimlərinə Rusiya medallarını təqdim edib... Siyahını davam etdirmək olar, belə intensivlik nədən xəbər verir?***





- Doğrudan da, son həftələr ərzində Rusiya-Azərbaycan münasibətləri sferasında baş verənləri təhlil etsək, kifayət qədər həcmli mənzərə yaranır. Bura mədəniyyət sahəsi, parlament əməkdaşlığı, xarici işlər nazirlikləri arasında əməkdaşlıq daxildir və son dərəcə vacib olan Azərbaycan Prezidenti İlham Əliyevin Moskvada Qələbə Paradına səfəri ilə bağlı məlumatlar təsdiqlənib.

Bütün bunlar münasibətlərimizin, ölkələrimizin sistemli, rasional qurulmuş strategiyasının və Azərbaycanın savadlı, savadlı xarici siyasətinin mənzərəsini nümayiş etdirir.

Biz görürük ki, İlham Əliyev və onun komandası beynəlxalq arenada atılan addımların düzgün ardıcıllığı ilə necə tamamilə fərqli dövlətlərlə münasibətlər qurur, burada söhbət ilk növbədə Rusiyadan gedir ki, onları, şübhəsiz ki, ən yaxşı paradiqmaya, mümkün olan ən yaxşı trayektoriyaya aparır.

Bəli, münasibətlərdə çətinliklər də var, kimdə yoxdur ki, amma vəziyyəti dalana dirənmək, münasibətlərin çətin dövründən çıxmaq, vəziyyəti sabitləşdirmək və gələcək strateji əməkdaşlığa gətirib çıxarmaq əsl yüksək diplomatiya sənətidir.

Biz görürük ki, məhz bu qabağı görmək, proqnozlaşdırmaq, gələcəyə hesablamalar aparmaq bacarığı sayəsində Azərbaycan dünyada sadəcə kiçik bir ölkə, kiminsə peyki kimi qəbul edilmir. Azərbaycan Respublikası öz prezidentinin müdrik siyasəti sayəsində özünün müstəsna, milli yönümlü siyasətini həyata keçirir. Bu, Bakının uğurunun açarıdır. Biz bunu Rusiya-Azərbaycan münasibətlərinin timsalında görürük, bunu İlham Əliyevin Türkiyə-İsrail münasibətlərinin qurulmasında oynadığı mühüm rolun timsalında görürük. Çünki bu diplomatik yolda gərginliyin azaldılması, şübhəsiz ki, prezident Əliyevin xidmətləridir.

Azərbaycan mütəmadi olaraq yeni dünya nizamı və daha ədalətli dünya qurmaq məsələsini gündəmə gətirir. Və bu məsələdə Moskva ilə Bakının ortaq mövqeyi var.

İndi biz görürük ki, nə qədər Qərb dövlətləri sözün əsl mənasında dalana dirənib, həm daxili, həm də xarici problemlərlə üzləşiblər. Qərb artıq 1990-cı illərin əvvəllərində bizə göründüyü kimi deyil. Dünya dəyişir, onun siyasi konfiqurasiyası dəyişir. Və bu gün Azərbaycan Cənubi Qafqaz regionunda və daha da geniş şəkildə bu proseslərdə irəliyə doğru oyunçu kimi çıxış edir. Bakı çox gözəl anlayır ki, dünyada vəziyyət dəyişir, geosiyasi mübarizədə vəziyyət dəyişir.

Cəmi 20 il əvvəl Qərbdən gələn tənqidlərin arası kəsilmirdi, bütün Qərb bizim necə yaşamalı olduğumuzu tənqid edirdi. Amma indi tərsinədir: Qərb sizi tənqid etmirsə, bu o deməkdir ki, siz nəyisə səhv edirsiniz... Amma sizi tənqid edirlərsə, deməli, hər şeyi düzgün edirsiniz.

Təbii ki, Azərbaycan bu gün Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin daşıyıcısı, Qərbin və ya başqasının təzyiqi fonunda hamıdan yaxşı dayanan ən məsuliyyətli dövlət kimi qəbul edilir. Məhz Azərbaycanın cəsarəti və qətiyyəti hücumlardan, tənqidlərdən, hansısa siyasi təzyiq cəhdlərindən qorxmaması onu Zaqafqaziyada ən güclü edir. Bəzilərinin hələ də köhnə nizama, Qərbə uyğunlaşmaq arzusu var; başa düşmürlər ki, dünya siyasətinin yeni, gənc küləkləri artıq əsməkdədir. Cəsarət, qətiyyət, situasiyaya uyğun hərəkət etmək bacarığı isə uğura aparır. Beynəlxalq münasibətlərlə məşğul olanlar çoxdan başa düşürlər ki, Qərb çoxdan hansısa kumir, bir növ həyat müəllimi olmaqdan çıxıb. Azərbaycanın ağıllı xarici siyasəti isə onu müsbət səciyyələndirir, çünki yalnız sabit, dayanıqlı dövlət uğurlu xarici siyasət həyata keçirə bilər.

Çoxları Rusiyanı Azərbaycana qarşı qoymaq istəyirdi və istəyir. Ölkələrimiz arasında gərginlik var idi, lakin biz hamımız öz səhvlərimizi etiraf etməyə hazırıq, bütün problemli məsələləri konstruktiv şəkildə, müttəfiqliyə üstünlük verərək həll etməyə hazırıq. Bu, ən vacib şeydir. Ən əsası odur ki, bizim ikitərəfli münasibətlərimiz sarsılmaz təməl üzərində qurulub, bu təməl tarixi əlaqələrə, liderlərimizin dünyagörüşlərinin yaxınlığına əsaslanır.

Biz Rusiya və Azərbaycan liderlərinin siyasi iradəsi və qarşılıqlı anlaşması sayəsində xaricdən qaynaqlanan qarşıdurma ssenarisini dəf edə bildik, əməkdaşlığımızı konstruktiv və irəliyə doğru istiqamətləndirən səviyyəyə çatdıra bildik.

Təbii ki, Azərbaycan Prezidenti İlham Əliyevin Moskvada keçiriləcək Qələbə Paradında iştirak etməsi, Azərbaycan hərbçilərinin Rusiyanın baş meydanı üzərindən nizami yürüş etməsi təkcə ikitərəfli münasibətlərimiz baxımından deyil, həm də geosiyasət baxımından çox mühüm və simvolikdir. Axı kimin nə deməsindən asılı olmayaraq, bu və ya digər dövlətin rəhbərinin mayın 9-da Moskvada olması bu gün birmənalı geosiyasi markerdir, çox mühüm, xəbərdaredici göstəricidir. Bütün siyasət simvolizm üzərində asılır. Simvolik addımların əhəmiyyətini və dərinliyini anlamayan siyasətdən heç nə başa düşmür. Siyasət hansısa mücərrəd fikirlər deyil, çox vaxt liderlərimizin simvolik addımları ilə ifadə olunan real hərəkətlərdir. Gələcəyimizi birlikdə düşünəndə.

Makroregionda siyasət və hərbi-siyasi vəziyyət Rusiyanın dünyanın geosiyasi mərkəzlərindən biri və Azərbaycanın qüdrətli regional gücü kimi sabitliyindən, konstruktivliyindən və pozitivliyindən asılıdır; bu açıq bir şeydir.

***- Rusiya müntəzəm olaraq Bakı ilə İrəvan arasında qalan bütün məsələlərin həllinə yardım etməyə hazır olduğunu bildirir. Amma eyni zamanda qeyd edir ki, bu məsələlərə ciddi yanaşmaq lazımdır. Prinsipcə, Bakının mövqeyi də eynidir: fundamental məsələlər həll olunmadan sülh müqaviləsi sadəcə imzalana bilməz...***

- Bu, məsuliyyətli dövlətlərin mövqeyidir. Bu, obyektiv yanaşmadır, qonşuların dünyasına diqqətli yanaşmadır. Sülh müqaviləsinin hazırlanmasından və bütün fundamental məsələlərin həllindən danışarkən qeyd etmək lazımdır ki, hər şey bir-iki dəqiqəyə həll oluna bilsəydi, Azərbaycanla Ermənistan arasında münasibətlər çoxdan normallaşardı. Və burada başqa məsələlərlə yanaşı, tərəflərin mövqelərinin yaxınlaşmamasına hansısa "xarici" xarici qüvvənin "töhfə" verib-verməməsinə də baxmaq lazımdır; ola bilsin ki, Azərbaycanla Ermənistan arasında həll olunmamış vəziyyətdən kiminsə qazanc əldə etməsi sərfəlidir.

Rusiya isə əksinə, mövqelərin yaxınlaşmasının tərəfdarıdır. İstənilən impulsiv, düşünülməmiş qərarlar gələcəkdə sülhə başa gələ bilər və yenidən qisas hisslərinə səbəb ola bilər. Və bu çox təhlükəlidir. Ona görə də davamlı sülhə mane olan bütün məsələlər əvvəlcədən həll edilməlidir.

***Tərcümə - Elçin Bayramlı***

# Qarabağ və Şərqi Zəngəzurda avtomobil yolları



Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Artıq müharibənin başa çatmasından dörd ildən artıq il ötür. İşğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə start verilib. Bu gün Azərbaycanda yeni bir həyat başlayıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlara yenidən nəfəs gəlir və bu məkanların infrastrukturu yenidən qurulur, yeni yollar çəkilir. Bildiyimiz kimi, 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri dağıdılmışdır. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa işinə star verib, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən








infrastruktur layihələri reallaşdırır.Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yollarının yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir.

Qeyd edək ki, ölkədə son illər ərzində yol-nəqliyyat infrastrukturu sahəsində əhəmiyyətli islahatlar həyata keçirilmişdir. Son 21 ildə Azərbaycan Respublikasında yol infrastrukturunun inkişafı sahəsində əsas nailiyyətlərdən biri ümumilikdə 20,8 min km uzunluğunda (o cümlədən 6,6 min km respublika əhəmiyyətli, 11,6 min km yerli əhəmiyyətli və 2,6 min km isə Bakı şəhərində) yeni yolların tikilməsi, yenidən qurulması və təmir olunmasıdır. Bundan əlavə, ümumi istifadədə və Bakı şəhərində olan avtomobil yollarında ümumilikdə 335 ədəd körpü və yol ötürücüsü tikilmiş, 56 ədədi təmir edilmiş, 163 ədəd yeraltı və yerüstü piyada keçidi və 45 ədəd tunel tikilmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, işğaldan azad olunmuş ərazilərdə ümumi uzunluğu 3.4 min km təşkil edən 44 avtomobil yolu layihəsi icra edilir ki, onlardan ümumilikdə 0.3 min km (6 layihə tamamilə, 1 layihə isə qismən) tikilib başa çatdırılmışdır.

## 28 TUNEL, 392 KÖRPÜ VƏ 9 VİADUKUN

## TİKİNTİSİ TAMAMLANIB

Prezidentin imzaladığı müvafiq sərəncamlarla Qarabağ və Şərqi Zəngəzurda çoxlu sayda avtomobil yollarının inşasına böyük həcmdə maliyyə vəsaitləri ayrılıb və görülən işlərin icrası daha da sürətləndirilib. Bunun nəticəsidir ki, qələbəmizin simvolu sayılan "Zəfər yolu"nun tikintisi cəmi bir ilə başa çatdırılıb və yol artıq istifadədir. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik "Zəfər yolu" Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən "Zəfər yolu" Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Qeyd edək ki, dövlət büdcəsindən ayrılan vəsait hesabına hazırda işğaldan azad olunan ərazilərdə daha 15 avtomobil yolunun tikintisi həyata keçirilir. 2020-2024-cü illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində, həmçinin dövlət başçısının sərəncamları əsasında 44 avtomobil yolu layihəsinin tikintisi aparılır. Bu layihələr çərçivəsində 45 tunel, 447 körpü, 16 viadukun inşası nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi artıq tamamlanmışdır.

## STRATEJİ ƏHƏMİYYƏTƏ MALİK LAYİHƏ

Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi), strateji əhəmiyyətə malik və regionda yeni iqtisadi, nəqliyyat və kommunikasiya əlaqələrinin qurulmasına töhfə verən bir layihədir. Uzunluğu 123,6 km olan bu yolun tikintisi hazırda 93 faiz tamamlanıb. Hazırda 93%-lik tamamlanma ilə, yaxın gələcəkdə bu layihənin tam olaraq istifadəyə verilməsi region üçün yeni üfüqlər açacaq. Zəngəzur dəhlizi layihəsinin texniki göstəriciləri, yolun yüksək keyfiyyətlə və müasir standartlara uyğun inşa edilməsini təmin edir. Yolun ümumi uzunluğu 149,9 km təşkil edir. Əsas yolun uzunluğu isə 123,6 km-dir. Yolun texniki dərəcəsi 1B-dir, bu isə yüksək sürət və təhlükəsiz hərəkətə imkan yaradır. Yolun eni 14-21 m arasında dəyişir, torpaq yatağının eni 21.5-29.5 m, hərəkət zolaqlarının sayı isə 4-6 arasında təyin edilib. Bu, nəqliyyatın rahat və təhlükəsiz axınına zəmin yaradır.

Layihə çərçivəsində 261 boru (16 814 m), 55 alt keçid (3781 m) və 28 körpü (2090 m) inşa edilir. Ayrıca, yol boyunca 3 tunel də tikilir, bu tunellərin ümumi uzunluğu isə 12 032 m-dir. Layihə üzrə görülən asfalt işləri 950 000 m3, torpaq işlərinin həcmi isə 61 646 373 m3 təşkil edir. Bu da yolun möhkəm və davamlı olmasını təmin edən əsas faktorlardır. Zəngəzur dəhlizinin tikintisindəki mühüm layihə komponentlərindən biri tunellərdir. Tunellər üzrə tikinti işləri artıq böyük ölçüdə tamamlanıb. Belə ki, şərti adları T1, T2 və T3 olan tunellərinin hər birində qazma, püskürtmə beton işləri artıq yekunlaşıb. Layihə üzrə ümumilikdə 28 körpü tikilir, bunlardan 16-ı su ötürücü, 12-si isə yol ötürücüdür. 19 körpünün tikintisi artıq yekunlaşıb, 8 körpüdə tikinti işləri davam edir. Həmçinin, alt keçidlərin, 258 dairəvi, 42 düzbucaqlı boruların tikintisi də sona çatdırılıb. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun inşası, Azərbaycanın infrastruktur sahəsində atdığı mühüm addımlardan biridir.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Zəngəzur dəhlizinin tikintisi yalnız infrastruktur layihəsi olmaqla kifayətlənmir, həm də regional inteqrasiyanın mühüm bir hissəsidir. Bu yol, yalnız nəqliyyat sistemini gücləndirmək deyil, həm də regionda iqtisadiyyatın inkişafını sürətləndirmək və strateji əlaqələri gücləndirmək üçün mühüm bir vasitə olacaqdır. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Bu gün həqiqətən də Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bəşəriyyət erməni vəhşiliyindən sarsılıb




Tarixin müxtəlif dövrlərində vəhşi toplumlar, imperalist dövlətlər olub və onlar başqa xalqların ərazilərini işğal edib, kütləvi qətliamlar törədib, miqyaslı dəhşətlər yaradan dağıntılar törədiblər. Ancaq araşdırmalar əsasında faktlar sübut edir ki, bəşəriyyət tarixində ən vəhşi və qaniçən toplum ermənilərdir. Çünki bu vəhşi toplum yalnız insanları öldürmür, həm də şəhərləri, kənd və qəsəbələri viran qoymaqla yanaşı, təbiəti böyük dağıntılara məruz qoyurlar. Bu baxımdan haqlı olaraq tərəqqipərvər xalqlar erməniləri insanlıq üçün ən vəhşi toplum hesab edir və bunu öz dillərində kitablara salır, rəsm əsərlərində əks etdirir, yetişməkdə olan gənclərinə çatdırırlar. Fransız səyyahı qraf De-Şolye Fransanın indiki oyuncaq rəhbəri E.Makrondan fərqli olaraq öz xatirələrində yazırdı ki, "mən ermənilərlə heç zaman dil tapa bilmədim. Onların hiyləgərliyi olduqca iyrənc, alçaqlığı olduqca dözülməz, əclaflığı olduqca təəssüfləndiricidir".

Polkovnik-leytenant Qryaznov isə 1915-ci ildə Ərzincandakı qırğınlar haqqında raportunda insanlığı dəhşətə gətirən faktlar sadalanır: "Kəndlərə aparılan yollara müsəlman kəndlilərinin süngüyə keçirilmiş meyitləri, kəsilmiş bədən hissələri və dağılıb tökülmüş daxili orqanları səpələnmişdi Əsasən qadınlar və uşaqlar! Hakimlər və sahibkarlar qətlləri təşkil etmiş, erməni ordusu onu yerinə yetirmişdir. Dərin quyular qazılmış və kəməksiz insanlar heyvan kimi kəsilərək bir-birinin ardınca quyulara atılmışdır. Qətllər üçün məsuliyyət daşıyan ermənilər bir evə səksən nəfər müsəlman doldurur, sonra isə onların başlarını kəsirdi.

Erməni terroru harada peyda olursa-orada insanlıq məhv olur, şəhər və qəsəbələr yerlə- yeksan olur, tarixi mədəniyyət nümunələri sıradan çıxır. Təkcə Azərbaycan əhalisi dörd dəfə -1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə erməni terrorunun qurbanı olub və nəticədə 2 milyondan çox insan həyatını itirib, sağlamlığından məhrum olunub. 1918-ci ilin mart qırğınları isə xalqımıza qarşı həyata keçirilən soyqırımı siyasətinin ən dəhşətli səhifələrindəndir. Martın 30-u, 31-i və aprelin 1-də ermənilər bolşevik Rusiyanın hərbi yardımı ilə təkcə Bakıda 15 min azərbaycanlını qətlə yetiriblər. Erməni vəhşiləri Bakıda, Şamaxıda, Qubada, Xaçmazda, Ağsuda, Kürdəmirdə, Salyanda, 50 mindən çox soydaşımızın həyatına son qoydular. Şamaxı qəzasında 58, Quba qəzasında 112, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Qars vilayətində 82 yaşayış məntəqəsi, yerlə-yeksan edilmiş, yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyondan çox soydaşımız tarixi-etnik torpaqlarından didərgin salınmışdır. Ümummilli Liderimiz Heydər Əliyev əsaslı olaraq tarixi çıxışlarında qeyd edirdi ki, ermənilərin torpaqlarımızda törətdiyi soyqırımlar kütləvi nəşrlərdə və informasiya vasitələrində daim əks olunmalı və geniş formada dünya birliyinə çatdırılmalıdır: "Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir".

Rus diplomatı general Mayevski "Ermənilərin törətdiyi kütləvi qırğınlar" kitabında qeyd edir ki, zərərli təsirlər nəticəsində yaratdığı illüziyanın müdafiəsi üçün qanlı fədakarlığa hazır olan qudurğan, inadkar erməni gəncləri yetişir: "Ali məktəbdən tutmuş lap adicə ibtidai məktəblərə qədər bütün erməni məktəbləri Avropa paytaxtlarında ifrat dərəcəyə çatdırılmış erməni təbliğatçılarının qızğın fəaliyyət meydanına çevrilmişdi. Vətənpərvərlik mədhiyyə və mahnıları, kəskin satira və təmsillər müəllimlər mühitindən yeniyetmələrin odlu qəlbinə düşürdü, onlarda müsəlmanların mənfur hakimiyyətinə qarşı qəzəb, kin-küdurət hissini heç kimə məlum olmayan gələcəyin fantastik illüziyalarının bütöv bir silsiləsini alovlandırırdı. Beləliklə, ən qısa bir vaxt (3-4 il) ərzində onların yaratdığı illüziyanın müdafiəsi üçün qanlı fədakarlığa hazır olan qudurğan, inadkar gənclər yarandı "

## Dünyanın ən vəhşi toplumu ermənilərdir

Bu və digər faktlara istinadən dünyanın ən vəhşi və vandal toplumunun ermənilərdən ibarət olduğunu desək səhv etmərik. Ermənilər o dərəcə vəhşi və idarəolunmaz terror əməlinə malik toplumdur ki, sovetlər dönəmində belə öz məkrli niyyətlərindən və məqsədlərindən əl çəkməmişlər. Hətta İkinci dünya müharibəsindən qısa müddət sonra yaralar sağalmamış, daxili problemlər aradan qaldırılmamış erməni kilsəsi sovet rəhbərliyindən, xüsusilə də İosif Stalindən Azərbaycanın tarixi torpaqlarından onlara yeni ərazilərin verilməsi tələbi ilə müraciət etmişlər. 1945-ci il aprelin 19-da bütün ermənilərin VI katolikosu, arxiyepiskop Gevorq Çeorekçiyan SSRİ dövlətinin rəhbəri İ.Stalinə 11 bənddən ibarət ərizə ilə müraciət edir və onunla görüşür. Bu görüş zamanı İ.Stalin katolikosa xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçməyə və bundan əlavə Türkiyə Cümhuriyyətindən qondarma "Qərbi Ermənistan" adlanan torpaqların geri alınacağını söyləyir. Katolikosun ərizəsinin üstünə "Razıyam. Xalq Komissarları Sovetinin sədri İosif Stalin. 19.04.1945-ci il" dərkənarını qoyur. Nəticə etibarı ilə 945-ci il noyabrın 21-də SSRİ XKS-ti "Sovet Ermənistana xarici ölkələrdən qaytarılmaları ilə bağlı tədbirlər" haqqında 2947 saylı qətnamə qəbul edir. Bu qərarı alan Ermənistan SSR rəhbəri G.Arutinov İ.V.Stalinə Azərbaycanın qala qapısı, ulularımız qurucusu, məskən yeri olan Qarabağın Ermənistan SSR tərkibinə verilməsi ilə bağlı ona məktubla müraciət edir.İ.V.Stalin məktubu G.M.Malenkova ünvanlayır və məsələni Azərbaycan SSR rəhbəri M.C.Bağırovla müzakirə etməyi tapşırır. 1945-ci il noyabrın 28-də UİK(b)P MK-nın katibi G.M.Malenkov Azərbaycan KP(b)P MK-nın birinci katibi M.C.Bağırova teleqram vurur. A.Arutyunovun məktub-layihəsindəki dəlilləri alt-üst edən M.C.Bağırov bildirir ki, əgər ermənilərin əsas götürdükləri səbəbə görə Yuxarı Qarabağın Ermənistana verilməsi məqbul sayılırsa, nə olar, qoy DQMV-nin Şuşa rayonu istisna olunmaqla ərazisi Ermənistana verilsin. Ancaq bir şərtlə azərbaycanlıların yaşadığı Vedi, Qarabağlar və Yeğeqnadzor rayonları Naxçıvana birləşdirilsin, habelə, vaxtilə Gürcüstana və Dağıstana verilən Azərbaycan torpaqları geri qaytarılsın.

## Ermənilərə vurulan sərt şapalaq, sadəcə 43 il kifayət etdi

M.C.Bağırovun tutarlı tələbi qarşısında aciz qalan ermənilər iddialarından geri çəkilir. Bununla belə ermənilər 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyətinin xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSRİ ərazisinə köçürülməsi ilə bağlı "Xarici ölkələrdən vətənləri Sovet Ermənistanına qayıdan milliyyətcə erməni olan şəxslərin SSRİ vətəndaşlığı almaq qaydaları haqqında" adlı qərarın verilməsinə nail oldular. Məhz xaricdən bölgəyə köçürülən ermənilər 1988-89-cu illərdə Azərbaycana qarşı terror aktları həyata keçirməyə başladılar. Əsrlərlə öz tarixi torpaqlarında yaşamış 250 mindən çox azərbaycanlı dədə-baba torpaqlarından zorla deportasiya edilmişdir. Deportasiya zamanı 225 nəfər qətlə yetirilmiş, 300 nəfər müxtəlif bədən xəsarətləri almış, 2000-ə yaxın azərbaycanlı türklərinin yaşadıqları kəndlər boşaldılmış, azərbaycanlılara məxsus tarixi mədəni abidələr və qəbiristanlıqlar dağıdılmış, tarixi-coğrafi adlar dəyişdirilmiş, insanların mülkləri və şəxsi əşyaları əvəzsiz mənimsənilmişdir. Ermənilər vəhşi əməlləri ilə beynəlxalq sənədlərin müddəalarını kobudluqla pozmuşlar: BMT Nizamnaməsi; "İnsan Hüquqlarının Ümumi Bəyannaməsi" (1948); "İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası (1950); Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt (1966); "Dini əqidə əsasmda diskriminasiya və dözülməzliyin bütün formalarının ləğv edilməsi haqqında" Bəyannamə (1986); "Hərbi cinayətlər və bəşəriyyət əleyhinə olan müddət tarixinin tətbiq edilməməsi haqqında" Konvensiya (1968) və s. Beynəlxalq qanunları erməni toplumu kobud şəkildə pozaraq azərbaycanlıları öz doğma yurd yuvalarından didərgin salmışlar. Bununla kifayətlənməyib Qarabağa qarşıda iddialar irəli sürmüş və xaricdəki himayədarlarından hərbi - siyasi dəstək almaqla ərazidə yaşayan dinc insanlara qarşı görünməmiş vəhşiliklər törətmişlər. Halbuki bu ərazilərdə yaşayan əhalinin, bir neçə kənd istisna olmaqla, bütünlükdə azərbaycanlılardan ibarət olub. 1923- cü ilə qədər, yəni Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılana qədər Dizax, Vərəndə, Çiləbird, Xaçın, Talış məlikliyi Xəmsə adlanırdı. Qarabağ xalçası, Qarabağ geyim növləri, əltikmə işləri nəinki Azərbaycanda, hətta bütün Şərq ölkələrində tanınmışdı və yüksək qiymətləndirilirdi. Qarabağda özünəməxsus çəki və ölçü vahidi mövcud idi. Qarabağ şairlərini birləşdirən Məclisi-üns və Məclisi-fəramuşan öz üslubu ilə seçilirdi. Qarabağ musiqi məktəbi isə, hətta bütün Şərqdə məşhur idi. Pənahəli xanın Qarabağın paytaxtı olaraq tikdirdiyi (1750-1757) Şuşa Zaqafqaziyanın konservatoriyası hesab olunmuşdur. XVIII əsrin sonları - XIX əsrin başlanğıcında Rusiyanın Cənubi Qafqazda, o cümlədən, Azərbaycanda işğalçılıq fəaliyyəti gücləndi. İbrahim xan Rusiya qoşunlarının komandanı R.D. Sisianovla (1802-1806) Kürəkçayda müqavilə bağladı. Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı məhz müsəlman - Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olundu. Tarixi reallığı əks etdirən Kürəkçay müqaviləsi Qarabağın Azərbaycan xalqına məxsus olduğunu sübut edən ən mötəbər sənəddir.

## Çirkin və məkrli siyasətə "Dəmir yumruq"la cavab verildi

Azərbaycanın tarixi torpaqlarının ermənilər tərəfindən işğalında Rusiya, fars-molla rejiminin və Avropadakı ermənipərəst dairələrinin hərbi, siyasi dəstəyi olmuşdur. Şuşanın ermənilər tərəfindən işğalında birbaşa fars-molla rejiminin rolu ilə bağlı ciddi faktlar mövcuddur. Fars-molla rejimi o zaman guya "müsəlman maraqların"dan çıxış etdiyini göstərir və Azərbaycan Respublikasının Milli Məclisinin sədri, eləcə də prezident səlahiyyətlərini icra etmiş Yaqub Məmmədovu Tehrana dəvət etmişdir. Guya Tehran rejimi Ermənistan prezidenti Ter Petrosyanla Yaqub Məmmədov arasında cəbhədə atəşkəsə nail olunması ilə bağlı müqavilə imzalanmalı idi. Boşluqdan və rəhbərliyin ölkədə olmamasından istifadə edən erməni terror dəstələri Şuşanı işğal etdilər. Sonradan aydın oldu ki, molla rejimi Yaqub Məmmədovu aldadaraq Tehrana aparıb və ermənilər də asanlıqla Şuşanı işğal etdilər. Fars molla rejiminin məkrli fəaliyyəti bununla yekunlaşmır. 20 noyabr 1991-ci ildə Qarakənd səmasında Azərbaycanın yüksək dövlət rəsmilərinin və Rusiya hərbçilərinin olduğu vertolyotun vurulmasında da fars-molla rejiminin əlinin olduğu sübuta yetirilir. Mövcud faktlara və sübutlara görə terror aktını törədən 17 nəfərdən dördü SEPAH-ın əməkdaşı olub. Həmin terror aktını törədən şəxsləri hadisəni törətdikdən sonra molla rejiminin xüsusi xidmət orqanlarının yardımı ilə Tehrana oradan isə Kanadaya, bəziləri isə Livana qaçırılmışlar.

Bəzi dövlətlər zahirən özlərini dost ölkə kimi göstərsələr də, əslində, Azərbaycanın dünyada artan gücü, yüksələn iqtisadi potensialı onları narahat edir. Onlar həm də Azərbaycanın sabit, sakit dövlət olmasından, milli birliyin, vəhdətin sarsılmazlığından ciddi şəkildə təşviş keçirirlər. Ona görə də hər cür iyrənc vasitələrdən istifadə etməklə Azərbaycanın uğurlarına kölgə salmağa çalışırlar. Lakin bütün çirkin və məkrli siyasətə baxmayaraq Azərbaycan xalqı LİDERİ, Fateh Sərkərdə, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə 44 günlük Vətən Müharibəsi ilə ermənı işğalına son qoyub, ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bu gün Azərbaycan əraziləri rahat nəfəs alır. Bölgədə separatizmə son qoyulması ilə genişmiqyaslı quruculuq, təmir, tikinti işləri həyata keçirilir. İnsanlarımız doğma yurd-yuvalarına qayıtmaqla bölgəni daha da inkişaf etdirir, gözəlləşdirir və əsrarəngiz diyara çevirirlər.

***İLHAM ƏLİYEV***

# Azərbaycan regional təhlükəsizliyin yeganə təminatçısıdır




Bu gün Azərbaycanın qazandığı iqtisadi, sosial, hərbi, siyasi, diplomatik uğurların, qələbələrin başlıca təminatçısı Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətin Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla aparılmasıdır. Məhz əldə olunan böyük qələbələrin bəhrəsi olaraq dünya xalqları və dövlətləri Azərbaycanla münasibətlərin daha da dərinləşməsinə xüsusi önəm verirlər. İmzalanan çoxsaylı dövlətlərarası müqavilələr, beynəlxalq müqyaslı sazişlər Azərbaycanın dünyada artan nüfuzunun təsdiqidir. Daim dünya ölkələri beynəlxalq konfransaların, tədbirlərin, idman yarışlarının sabitlik adası olan Azərbaycanda keçirilməsində istəkli olurlar. COP29 konfransının ardınca 9 aprel 2025-ci ildə ADA Universitetində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə ”Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forumun keçirilməsi dünya birliyinin Azərbaycanla daha isti və davamlı münasibətlərin qurulmasında maraqlı olduğunu göstərir. Belə bir beynəlxalq konfransın ölkəmizdə keçirilməsi Azərbaycanın dünyada mövqeyinin daha da möhkəmlənməsinə təkan olmaqla yanaşı, həm də dövlətimizin əldə etdiyi nailiyyətlərin, aparılan siyasətin dünya ölkələrinə təqdimatıdır. ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçı?ı ilə ”Yeni dünya nizamına do?ru” mövzusunda keçirilən Forumda 44 ölkədən 80-dan çox tanınmış beynəlxalq ekspertlər, analitiklər, siyasətçilər və diplomatlar iştirak etmişdir. Sayca 7-ci olan bu forum Azərbaycanda hər il keçirilir və konfransların hamısında beynəlxalq ekspertlər və beyin mərkəzləri qlobal dünyanı narahat edan məsələləri müzakirə edib, təklif və rəylərini səsləndirirlər. Eyni zamanda dünyanın müxtəlif ölkələrindən gələn ekspertlər, siyasətçilər, elm adamları Azərbaycan həqiqətləri ilə yaxından tanış olmaq imkanı



***Eldar İbrahimov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri, professor***

qazanırlar. Artıq beşinci ildir ki, ölkəmizə gələn forum iştirakçıları Fateh Sərkərdə, Prezident İlham Əliyevin Sərkərdəlik məharəti ilə azadlığına qovuşan Qarabağımıza səfərlər edirlər. Ölkələrinə qayıtdıqdan sonra isə səfər iştirakçıları Qarabağda aparılan geniş miqyaslı quruculuq, abadlıq, bərpa və təmir işlərindən sonra gözəlləşən, inkişaf edən ərazilərmizlə bağlı öz mətbuatlarında, televiziyalarında təəssüratlarını bölüşürlər. Forum iştirakçılarının işğaldan azad edilən ərazilərə səfərlər etmələrinə diqqət ayırarkən Prezident İlham Əliyev forumda çıxışında bildirdi ki, ”Siz dünən əfsuslar olsun ki, bir çox illər ərzində - otuz ildən artıq müddətdə erməni separatizminin mərkəzi olan Xankəndi şəhərini ziyarət etdiniz. Əslində, Ermənistanın dəstəklədiyi və maliyyələşdirdiyi separatçı hərəkat bu şəhərdə, Azərbaycanın əzəli torpağında başlamışdır. Xankəndi adının özü onun Azərbaycan mənşəyini və kökünü, Xanın kəndi olduğunu nümayiş etdirir. Lakin Azərbaycanın Qarabağ bölgəsində sovet hökumətinin siyasi, tarixi, iqtisadi və mədəni nöqteyi-nəzərdən qeyri-qanuni və tamamilə əsassız olan Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması qərarından sonra təəssüf ki, təcavüzkar separatizmə aparan bu prosesə start verildi. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması, əslində, zaman bombası idi və bu bomba separatçılara, onların sponsorlarına və münaqişəni öz siyasi məqsədləri üçün istifadə edən müxtəlif tərəflərə lazım olan anda partladı. Siz orada olmusunuz. Siz nələrin baş verdiklərinin şahidi olmusunuz. Hesab edirəm ki, bu gün Azərbaycanın reallığını rayonlara səfər ən yaxşı nümayiş etdirir. Xüsusilə dağıdılmış və ermənilərin işğal etdiyi rayonları nəzərdə tuturam. Əminəm ki, dünənki və bugünkü müzakirələr və ekspertlər arasında qarşılıqlı əlaqələr birgə yanaşmaları hazırlamağa və keçən dəfə, ötən il görüşdüyümüzdən bəri tamamilə fərqli olan sürətlə dəyişən dünya ilə bağlı fikirlərimizin mübadiləsinə kömək edəcək”.

### Yaddaşlarda uzun müddət qalacaq tarixi çıxış

Azərbaycan Prezidenti İlham Əliyevin forumda çıxışı həm daxili, həm də xarici siyasət prizmasından olduqca əhəmiyyətli məqamlarla zəngin oldu. Fateh Sərkərdə, Prezident İlham Əliyev nəinki. Azərbaycanın, regionun, həm də dünyada siyasi-iqtisadi məsələlərə diqqət çəkdi və müharibələrin, münaqişələrin arzuolunmaz fəlakətlər yaratdığını qeyd etdi. Prezident İlham Əliyev 44 günlük Vətən Müharibəsi dövründə Azərbaycanın qazandığı parlaq hərbi zəfərdən sonra Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinin regionda sülhə, təhlükəsizliyə mühüm töfələr verdiyini bildirdi. Prezident İlham Əliyev çıxışında diqqətə çatdırdı ki, Azərbaycanın 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında 24 saatdan az çəkən antiterror tədbirləri ilə öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini xüsusi vurğuladı. Haqlı və əsaslı formada bildirdi ki, bu, beynəlxalq hüquq tarixində nadir rast gəlinən haldır ki, bir ölkə xarici dəstək olmadan, yalnız öz siyasi iradəsi, güclü ordusu və xalqının birliyi hesabına otuz ildən çox davam etmiş bir işğala son qoyaraq suverenliyini tam təmin etmişdir.



Elçin Bayramlı

## İçməməli su: Əhali təhlükə qarşısında

Bir neçə gün əvvəl AzTV tərəfindən paytaxtın və Abşeron yarımadasının əsas su təchizatı bazası olan Ceyranbatan su anbarına axıdılan kanalizasiya suları haqda reportaj bu sahədə indiyədək deyilən, amma məsul şəxslər tərəfindən təkzib edilən problemin sübutu oldu. Elə həmin AzTVnin efirində dəfələrlə içməli su problemini ekspertlərlə birgə müzakirə etmişik və həyəcan təbili çalmışıq, lakin məsul şəxslər bunu ”eşitməyib”.

Faktiki olaraq Bakı və Abşeron zonasının içməli su təchizatında həm kəmiyyət, həm keyfiyyət üzrə ciddi problemlər var. Baxmayaraq ki, bu sahəyə dövlət tərəfindən milyardlarla manat vəsait ayrılıb, lakin problemin həllinə səbəb olmayıb.

İçməli su əhalinin həyatı və sağlamlığı üçün 1 nömrəli vasitədir. Burada baş verən təhlükələr çox ciddi nəticələrə səbəb ola bilər. Əvvəlcə suyun çirkliliyinin hansı təhlükələr yaratdığına baxaq. Hazırda dünyada 2 milyarddan çox adam içməyə yararlı olmayan su içir. Təxminən, 50-60 il bundan əvvəl ətraf mühitin çirklənməsi əsasən, iri sənaye müəssisələri və ayrı-ayrı dövlətlərin hərbi-sənaye kompleksi tullantıları hesabına baş verirdisə, günümüzdə ölkələrin əksəriyyətində bu amilə daha biri- iri yaşayış məntəqələrinin məişət çirkabı amili əlavə olunub.

Ümumdünya Səhiyyə Təşkilatının açıqlamasına görə, hazırda dünya əhalisinin 80 faizi keyfiyyətsiz, 40 faizi isə çirkli, ziyanlı sudan istifadə edir.

Beynəlxalq təşkilatların hesablamalarına görə, suyun antropogen çirklənməsi ilə bağlı xəstəliklər ildə 4 milyon uşağın ölümünə səbəb olur. İnkişaf etməkdə olan ölkələrdə 80 faiz xəstəliklər və ölüm hadisələri məhz içməməli su ilə bağlıdır.

Azərbaycanda bu problem özünü tam çılpaqlığı ilə göstərir. Çünki ölkəmizin su hövzələri böyük sürətlə çirklənməyə məruz qalır və insanlarımız bu ifrat dərəcədə çirklənmiş, təhlükəli xəstəliklər yaradan suyu içmək məcburiyyətində qalır.

Bu proses ən çox Abşeron yarımadasında özünü büruzə verir. Məlum olduğu kimi Bakı şəhəri və Abşeron rayonu uzun illərdir ki, şirin su tələbatını əsasən 5 su kəməri vasitəsi ilə təmin edir. Bunlar Şollar, Samur-Abşeron, Kürdən gələn 1-ci və 2-ci su kəmərləri, həmçinin Bakı-Qəbələ-Oğuz su kəməridir.

Başlıca narahatlıq isə ondan ibarətdir ki, Bakı və Abşeronun bir hissəsi, habelə bəzi şəhər və kəndlərin əsas hissəsi Gürcüstan və Ermənistanın (Araz vasitəsilə) hədsiz dərəcədə çirkləndirdiyi Kür suyu ilə təmin olunur. Digər narahatlıq doğuran məqam isə, Bakı-Qəbələ-Oğuz su kəmərinin və Şollar su kəmərinin suyunun sonradan Kür suyu ilə qarışdırılması, nəticədə bu suyun da çirklənməsi ilə bağlıdır. Maraqlıdır ki, paytaxtda içməli suyun çirkli olması faktı real olaraq ortada olsa da, aidiyyatı dövlət təşkilatları bunu inkar edir və bu sahədəki vəziyyəti normal hesab edirlər.

Mütəxəssislər isə deyir ki, əhaliyə verilən içməli su standartlara uyğun deyil. İnsanın qəbul etdiyi bütün qidalar həzm sistemi tərəfindən yalnız suda həll olmuş şəkildə həzm oluna bilir. Çirkli qidanın tərkibində olan zərərli qarışıqlar da məhz onların sulu məhlulundan sorulur və insanın qanına keçir. Çirkli suyun hesabına davam edən bu proses toplumu ən müxtəlif fəlakətlərə sürükləyir. Belə ki, qana daxil olan həmin çirkləndiricilər insanın gen strukturlarına dağıdıcı təsir göstərir- genetik informasiyanı pozur, gen kodlarını dağıdır. Bu da insan orqanizmində ən müxtəlif patalogiyaların və mutagen proseslərin başlanmasına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, hətta mövcud təmizləyici qurğularla belə tullantı suların tam təmizlənməsi mümkün olmur. İçməlu su təchizatına cavabdeh olanlar daim iddia edirlər ki, Kürün, Ceyranbatanın və digər hövzələrin suyu yetərli səviyyədə emala məruz qoyulandan sonra əhaliyə təklif olunur və bu səbəbdən də içməyə yararlıdır.

Halbuki, abonentlər evlərə verilən suyun hansı vəziyyətdə olduğunu real videoçəkilişlərlə ortaya qoyurlar. Mütəxəssislər isə bildirirlər ki, içməli suyun mexaniki qarışıqlardan tam təmizlənməsindən söhbət belə, gedə bilməz! Digər tərəfdən isə həmin sutəmizləyici qurğular suyun kimyəvi tərkibini təmizləmək qüdrətində deyil.

İçməli su təsərrüfatı idarələri bildirir ki, əhaliyə təklif olunan su xlorun köməyi ilə emal edilir və bu zaman suyun tərkibində olan mikroblar ölür. Xlorun təsiri ilə suda olan bakteriyaların hüceyrə maddələri oksidləşir, müxtəlif virus və zooplanktonlar məhv olur. Suyun xlorla emalından sonra o, içməyə yararlı olur. Lakin xlorun özü də sağlamlıq üçün təhlükəli maddədir.

Su hetiyatları Agentliyinin yaradılması da problemi həll edə bilmədi. Artıq bu sahədə vəziyyət kritik həddə çatıb və içməli su sistemi sökülüb yenidən qurulmalıdır. Əhalinin sağlamlığı üçün 1 nömrəli məsələ budur.

Fateh Sərkərdə, Ali Baş Komandan İlham Əliyev forum iştirakçılarının nəzərinə çatdırdı ki, Azərbaycan müharibəni bütün beynəlxalq qaydalara və dəyərlərə uyğun apardı: "Əlbəttə ki, bu suala cavab vermək üçün müxtəlif seqmentlər mövcuddur. Birincisi, müdafiə qabiliyyətidir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan öz Silahlı Qüvvələrində islahatları davam etdirmişdir. Bu ona görə olmuşdur ki, ərazimizdə hələ separatçılar var idi və istənilən təxribatlara hazır olmalı idik. 2020-ci il müharibəsindən suverenliyimizi tam bərpa etdiyimiz 2023-cü ilə qədər müəyyən hərbi qarşıdurmalar var idi.

İkinci Qarabağ müharibəsi zamanı hərbi əməliyyatların tərəfimizdən aparılması tərzi Azərbaycan hərbi qüvvələrinin yüksəksəviyyəli bacarığını, nizam-intizamını və Azərbaycan hökumətinin siyasi iradəsini nümayiş etdirdi. Biz intiqam almadıq. Lakin xüsusilə Qarabağa qayıdanda və barbarlığı, vəhşiliyi gördükdə işğal illərində hansı hissləri keçirdiyimizi təsəvvürünüzə gətirə bilərsiniz. Beləliklə dedik ki, - və mən bunu dəfələrlə demişəm, - intiqamımızı döyüş meydanında alacağıq. Normal insan davranışından və özümüzün sadiq olduğumuz müharibə qaydalarından kənara çıxan bir hərəkət etməyəcəyik. Bu, belə də oldu. Biz müharibəni bütün beynəlxalq qaydalara və dəyərlərə dair anlayışımıza uyğun apardıq. Bu, 44 günlük müharibənin hər bir gününü diqqətlə nəzərdən keçirən bütün ekspertlər tərəfindən yüksək qiymətləndirildi. Beləliklə, müharibə bitdikdən sonra, əlbəttə ki, vəziyyəti tamamilə sabit olan bir vəziyyət kimi qiymətləndirmək olmazdı. 2023-cü ilin sentyabrına qədər bu belə deyildi, itkilərimiz olurdu. Əfsuslar olsun ki, Ermənistan və onun arxasında duran bəzi xarici qüvvələr onlara çox pis məsləhətlər verirdilər. Əslində, 2020-ci il noyabrın 10-da Ermənistan kapitulyasiya aktına imza atdı və tarixdən hamımız bilirik ki, bir ölkə kapitulyasiya edəndə onun başına nə gəlir. Lakin bu, baş vermədi".

### Müttəfiqimiz və qardaşımız olan Türkiyə, dostumuz İsrail

Azərbaycan Prezidenti İlham Əliyevin forumda qeyd etdiyi əsas məqamlar, xüsusilə Azərbaycanın geosiyasi və geoiqtisadi əhəmiyyəti ilə bağlı fikirləri müasir beynəlxalq münasibətlər sistemində ölkəmizin yerinin və rolunun önəmli dərəcə də böyük olduğunu göstərir. "Müttəfiqimiz və qardaşımız olan Türkiyəyə, dostumuz İsrailə öz əlaqələrini yenidən qurmaq üçün yardım etmək istədik" fikri yaxın müttəfiq dövlətlər arasında əlaqələrin normallaşmasında Azərbaycanın maraqlı olduğunu nümayiş etdirir: "Bəlkə də bilirsiniz ki, bu normallaşmanın nəzərəçarpan əlamətləri də var idi, məsələn, İsrail Prezidenti cənab Hersoqun Türkiyəyə səfəri və Prezident Ərdoğanla görüşü, Prezident Ərdoğanla Baş nazir Netanyahu arasında Nyu-Yorkda görüş. Bu, iki il bundan əvvəl baş vermişdi.

İndi bir növ dejavü yaşayırıq. Biz addımlarımızın alqoritmini bilirik. Sizi əmin edə bilərəm ki, yardım etməyə çalışmaq üçün səy göstəririk. Ola bilsin ki, hazırkı mərhələdə bundan daha çox söz demək doğru olmaz, çünki yenə də bu, iki ölkə arasındakı münasibətlərdir. Aramızdakı hər hansı prosesi, - əgər, ümumiyyətlə, belə bir proses varsa, - nə dərəcədə ictimailəşdirmək istəmələrinə onlar özləri qərar verməlidirlər. Normallaşmanın birinci raundu zamanı tamamilə sakit idik. Biz bağlı qapılar arxasında işləyirdik. Təsəvvür edə bilərsiniz ki, indi eyni işi görürük. Ümidvarıq ki, bu proses normallaşmaya aparacaq. Dostlarınız arasında pis münasibətlərin olması hər zaman pisdir. Bu, onlar üçün pisdir, bizim üçün pisdir və dünya üçün pisdir. Çünki düşünürəm ki, legitim narahatlıqlara, kifayət qədər yüksək səviyyədə etimadsızlığa baxmayaraq, hələ də normallaşma və qarşılıqlı maraq doğuran sahələr üçün əsas tapmaq olar. Zənnimcə, proses dayanmamalıdır. Azərbaycan prosesə kömək etmək üçün əlində olan hər şeyi edir".

Azərbaycan Prezidentinin forum çərçivəsində xüsusilə vurğuladığı məsələlərdən biri də ABŞ-Azərbaycan əlaqələrinə mane olmağa çalışan qüvvələrin mövcudluğu oldu. Prezident İlham Əliyev Bayden-Blinken komandasını münasibətlərin zədələnməsinə cəhddə günahlandırdı: "Buna çox təəssüflənirəm, çünki təmaslarımızın əvvəlində ona çox etimad edirdim. Lakin əfsuslar olsun ki, yanılmışdım. Qafqazda ayırıcı xətlər çəkmək, Azərbaycanı təcrid etmək, bizə qarşı ayrı-seçkilik etmək, Azərbaycan haqqında şayiələr yaymaq cəhdləri oldu. Bayden-Blinken komandası hakimiyyətdən gedən kimi, Azərbaycana qarşı bütün bu insinuasiyalar dərhal dayandırıldı. Onların "Washington Post", "New York Times", "Politico" və s. kimi bizə qarşı çox aqressiv olan, Prezident Trampın "feyk xəbərlər" adlandırdığı mediası Azərbaycan haqqında çirkin məqalələr dərc etməyi dərhal dayandırdı. Biz bilirdik ki, bu məqalələrin mənbəyi Dövlət Departamentidir. USAID-lə də bağlı vəziyyət eyni idi. İndi, yeri gəlmişkən, bizim Baş prokuror USAID-in qanunsuz fəaliyyətini araşdırır. İlkin araşdırma ilə bağlı artıq məlumat verilmişdir. Bu, anti-Azərbaycan fəaliyyətinin miqyasını, hökumətimizə xələl gətirmək, daxili işlərimizə müdaxilə etmək və qarışmaq səylərini nümayiş etdirir. Sənədlər hazır olan kimi onu Prezident Tramp administrasiyasına təqdim edəcəyik ki, onlar bu korrupsiyaya uğramış USAID və onun korrupsiyalaşmış rəhbərləri barəsində ciddi tədbirlər görə bilsin. Beləliklə, bu tarixdir və bu tarix barədə bəlkə də saatlarla danışa bilərəm, lakin indi ən mühüm olan odur ki, bəli, gözlədiyimizi artıq əldə etmişik ya yox? Mən deyərdim, bəli. Çünki, birincisi, ABŞ siyasətində anti-Azərbaycan trendi dayandırıldı və bu, artıq müsbət məqamdır. İkincisi, artıq Tramp administrasiyasının üzvləri ilə Azərbaycan nümayəndə heyəti arasında müxtəlif səviyyələrdə yüksəksəviyyəli təmaslar baş tutub, gündəlik çox səmərəli və qarşılıqlı şəkildə məqbul olub. Üçüncüsü, Tramp administrasiyasının gündəliyini nəzərə alsaq, münasibətlərimizdə bu dövrün tərəfdaşlığımızı gücləndirmək üçün çox yaxşı imkan olacağını gözləyə bilərik, həmçinin birinci prezidentlik dövründə Tramp administrasiyası ilə işləməklə bağlı çox müsbət təcrübəmiz var. Bizim münasibətlərimizdə heç bir böhran yox idi. Bəli, münasibətlərimiz istədiyimiz kimi fəal deyildi, lakin bu, birinci prezidentlik dövrü idi". "ABŞ Prezidenti Trampın başladığı iş çox ümidvericidir, lakin hesab edirəm ki, o, dayanmamalıdır" deyə bildirən Azərbaycan Prezidenti İlham Əliyev onu da qeyd etdi ki, USAID, əlbəttə ki, bir nəhəngdir, tamamilə korrupsiyaya uğramış bir qurumdur: "Bu haqda danışmışam. Xoş xəbərdir ki, "Azadlıq Radiosu", "Azad Avropa" və "Amerikanın Səsi" artıq fəaliyyətini dayandırıb. Amma bu, kifayət deyil, daha dərinə getmək lazımdır. "Human Rights Watch", "Freedom House", "Amnesty International", "Transparency" - onun siyasi düşmənlərinin bütün bu infrastrukturu tamamilə fəaliyyətsiz vəziyyətə gətirilməlidir. Biz bütün o qarayaxma kampaniyaları ilə, əlaqələndirilmiş hücumlarla üzləşmiş bir ölkə olaraq onların necə işlədiklərini, necə fəaliyyət göstərdiklərini çox yaxşı bilirik. Biz o insanları tanıyırıq, səfirliklərdə qeyri-qanuni fəaliyyətlə məşğul olan insanları tanıyırıq və biz ABŞ Prokurorluğuna, hüquq-mühafizə orqanlarına cənab Trampın sələflərinin qeyri-qanuni dağıdıcı fəaliyyəti haqqında bütün məlumatları təqdim etməyə hazırıq. Bu barədə sualınıza cavab verdiyimi düşünürəm. Beləliklə, bizimlə olduğunuz üçün təşəkkür edirik".

### Prezident İlham Əliyevin dünya mediasının diqqətini özünə cəlb edən və müzakirələrə səbəb olan fikirləri

Prezident İlham Əliyevin dünya mediasının diqqətini özünə cəlb edən və müzakirələrə səbəb olan vacib məqamlardan biri də, Azərbaycanın qaz sənayesinin gələcək inkişafı və Avropanın enerji təhlükəsizliyi üçün oynadığı əhəmiyyətli rolu barədə çıxışı oldu. Prezident İlham Əliyev bildirdi ki, Avropa İttifaqı bir tərəfdən bəyan edir ki, 2050-ci ildə onlar karbon baxımından neytral olacaq, digər tərəfdən isəməndən sərmayə qoymağı və daha çox qaz hasil etməyi xahiş edir: "Beləliklə, həmin qaz nə vaxt və haraya nəql olunacaq? Əgər qazı bizdən əldə etməsəniz, onda niyə sərmayə yatırmalıyam və ya nəyə görə sizin bazarınıza əsas bazar kimi baxmalıyam? Bəli, qanunvericilik, qaydalar, prosedurlar, qarşılıqlı bağlantılar və bütövlükdə, qiymət baxımından, Avropa İttifaqının bazarı premium hesab edilir. Lakin başqa bazarlara nəzər salsaq, qonşuluğumuzda Azərbaycan qazına tələbat var. Biz təkcə Qərbə deyil, həmçinin Şərqə və Cənuba baxa bilərik. Beləliklə, bu, Azərbaycanın qaz sənayesinin gələcək inkişafı, Avropanın enerji təhlükəsizliyi üçün vacibdir. Avropanın enerji təhlükəsizliyi problemləri bizə məlumdur. Hazırda onların təhlükəsiz şəraitdə olmasına baxmayaraq, orada sənayenin tələbatları bizə bəllidir. Hətta yaşıl enerjiyə olan tələbatı da bilirik. Yaşıl enerjiyə böyük sərmayələrin yatırılmasına baxmayaraq, Avropa İttifaqında yenə də elektrik enerjisi çatışmır və bu məqsədlə hazırda Azərbaycandan Qara dənizin dibi ilə Rumıniyaya çəkiləcək yaşıl enerji kabeli üzərində işləyirik. Yeri gəlmişkən, dörd qiqavat yalnız başlanğıcdır. Beləliklə, Avropa Komissiyasında əyləşənlər gözlərindən eynəyi çıxarsınlar və dünyaya realist nöqteyi-nəzərdən baxsınlar, Azərbaycan kimi ölkələri dəyərləndirsinlər və Qafqazı sevdikləri ilə sevmədiklərinə bölməyə cəhd etməsinlər, yaxşı tərəfdaş kimi davransınlar. Biz buna hazırıq".

Prezident İlham Əliyev forum çərçivəsində çıxışında diqqətə çatdırdı ki, hazırda qaz təchizatımız 12 ölkəni əhatə edir, onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqının üzvüdür: "Albaniyanın qazlaşdırılmasını qeyd etdiniz. Sadəcə, sizi məlumatlandırmaq istərdim ki, Albaniyanın Korça şəhərində qazlaşdırma layihəsi Azərbaycan sərmayələri sayəsində həyata keçiriləcək. Beləliklə, o, artıq razılaşdırılıb. Alban hökuməti həmin şəhəri seçdi və düşünürəm ki, bu il biz qazlaşdırmağa sərmayə yatırmağa başlayacağıq. Bu sahədə təcrübəmiz var. Biz Gürcüstanın qazlaşdırılmasına artıq böyük sərmayələr yatırmışıq, düşünürəm ki, indi orada qazlaşdırmanın səviyyəsi təxminən 80 faiz təşkil edir. Biz öz vəsaitlərimizlə başladığımız zaman həmin səviyyə 30 faiz təşkil edirdi. Hazırda Bolqarıstanda qazlaşdırma layihəsini müzakirə edirik. Əslində, həmin ölkədə qazlaşdırma var, lakin məhduddur. Bu gün Bolqarıstan öz qaz istehlakının təxminən 50 faizini Azərbaycandan təmin edir və biz digər ölkələrdə də eyni addımı atmağa hazırıq. Yeri gəlmişkən, Xorvatiyaya gəldikdə, işimiz yalnız qazlaşdırmanın və ya qaz təchizatının müzakirəsi ilə məhdudlaşmır. Energetikaya aid digər məsələlər də var. Sağ olun. Bu suala görə minnətdaram, çünki həmin mühüm məsələni Avropadakı tərəfdaşlarımızın diqqətinə bir daha gətirə bildim".

Bir sözlə, ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forum və forumda Prezident İlham Əliyevin çıxışı nəinki, regionun sabitliyi, sosial iqtisadi inkişafına, eləcə də dünyada sülhün, senerji təhlükəsizliyinin təmin olunmasına mühüm töfvələr vermiş olacaq.

## Arıqlama iynələri əzələ itkisinə səbəb olur?

*DİYETOLOQ FİKRİ*



"Arıqlama iynələrinin əksəriyyəti iştahanı azaltmaq, mədə boşalmasını gecikdirmək və ya insulin həssaslığını artırmaq yolu ilə təsir göstərir". Bu sözləri SİA-ya açıqlamasında diyetoloq Ceyhunə Yusifova deyib. Ceyhunə Yusifova sözlərinə belə davam edib: "Bu proseslər nəticəsində qida qəbulunun azalması ilə bədən enerji ehtiyacını qarşılamaq üçün həm yağ ehtiyatlarından, həm də təəssüf ki, əzələ toxumasından istifadə edə bilər.

Əzələ itkisi riski varmı? Bəli, var. Hər hansı sürətli və qeyri-sağlam çəki itkisi zamanı - istər pəhrizlə, istərsə də arıqlama preparatları vasitəsilə - əgər qida rasionunda kifayət qədər protein yoxdursa və fiziki aktivlik, xüsusən də əzələ qoruyucu məşqlər edilmir isə, bədən yalnız yağları deyil, əzələ toxumasını da enerji mənbəyi kimi istifadə edir. Bu da bədən tərkibinin pisləşməsinə, maddələr mübadiləsinin zəifləməsinə və arıqlama prosesindən sonra çəkini daha sürətli bərpa etməyə səbəb ola bilər.

Əzələ itkisinin qarşısını necə almaq olar?

Arıqlama iynələrindən istifadə edən şəxslər üçün aşağıdakı tövsiyələr vacibdir:

Protein qəbulunu artırmaq. Əzələ toxumasını qorumaq üçün gündəlik protein ehtiyacını ödəmək mütləqdir.

Qüvvət məşqləri etmək. Əzələ qoruyucu idman növləri (məsələn, ağırlıq qaldırma və bədən çəkisi ilə edilən məşqlər) əzələ kütləsini saxlamağa kömək edir.

Düzgün nəzarət. Hər hansı dərman və ya iynədən istifadə etməzdən öncə mütləq həkim və ya dietoloq nəzarəti altında olmaq lazımdır.

Tərkibə diqqət. Hər preparatın təsir mexanizmi fərqlidir. Bəzi yeni nəsil dərmanlar (GLP-1 agonistləri kimi) əzələ itkisini minimuma endirə bilər, lakin hər halda düzgün qidalanma və fiziki aktivlik olmadan risk tamamilə aradan qalxmır.

**Nəticə olaraq:**

Arıqlama iynələri bəzən sürətli nəticə versə də, düzgün yanaşma olmadan əzələ itkisi riski qaçılmazdır. Sağlam və davamlı çəki itkisi üçün balanslı qidalanma, fiziki aktivlik və peşəkar nəzarət əsas şərtlərdir".

***Ayşən Vəli***

REPORTAJ

# Səs siqnallarından əhalinin narazılıqlarını eşitməmək üçün necə istifadə etmək lazımdır?



*Şəhərdə avtomobillərin səs siqnallarından düzgün istifadə etmək həm sürücülərin, həm də piyadaların rahatlığı və təhlükəsizliyi üçün vacibdir. Qanunvericiliyə görə, siqnal yalnız təhlükə zamanı istifadə olunmalıdır. Lakin reallıqda bir çox sürücü bu qaydalara əməl etmir və səs siqnalından lazım olmadıqda da istifadə edir. Bu isə şəhərdə səs-küyün artmasına və insanların narahat olmasına səbəb olur. Bəs görəsən, bu qaydalara əməl olunmamasının əsas səbəbi nədir və bu problemi aradan qaldırmaq üçün hansı tədbirlər görülə bilər? SİA mövzu ilə bağlı reportaj hazırlayıb.*



Məsələ ilə bağlı **Bakı şəhər Yol Polis idarəsinin hərəkətin təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqə bölməsinin rəisi, polis kapitanı Toğrul Nəsirli** qeyd edir ki, Bakı şəhər dövlət yol polis idarəsi tərəfindən bu istiqamətdə mütəmadi olaraq nəzarət, profilaktik tədbirlər həyata keçirilir: ”Təəssüflə qeyd etməliyəm ki, edilən xəbərdarlıqlara və həyata keçirilən inzibati tənbeh tədbirlərinə baxmayaraq, bu gün bəzi nəqliyyat vasitələrinin sürücüləri yenə də lüzumsuz olaraq səs siqnballarından istifadə edirlər. Qeyd edim ki, mövcud Qanunvericiliyin tələblərinə əsasən, yaşayış məntəqələrindən kənarda yalnız iki halda səs siqnallarından istifadə etmək yolverilməndir. Bu ilk növbə də yol nəqliyyat hadisəsinin qarşısını almaq və ya ötmə əməliyyatını həyata keçirən zaman olması düzgün sayılır. Amma bəzi sürücülər yaşayış zonalarında lüzumsuz olaraq səs siqnallarından istifadə edirlər. Bu qayda pozuntusudur və öz növbəsində inzibati məsuliyyət yaradır.

Belə hal aşkarlandığı tədbirdə, həmin sürücü barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 329.3-cü maddəsinə əsasən 30 manat məbləğində cərimə nəzərdə tutulur. Odur ki, bütün bunları nəzərə alaraq sürücülərdən xahişimiz, eyni zamanda tələbimiz ondan ibarətdir ki, bu kimi qaydalara riayət etsinlər. Eləcə ətrafda yaşayan sakinlərin və ya digər yol hərəkəti iştirakçılarının haqlı narazılığına səbəb olmasınlar”.

**Sürücü İsmayıl Babayev:** ”Mən səs siqnallarından piyada keçən zaman fikirli olduğu halda istifadə edirəm.



O zaman siqnal verirəm ki, dönüb avtomobilin keçdiyinə baxsın. Durmaz yerə səs siqnallarından istifadə edən sürücülərə mədəniyyətsiz insanlar kimi baxıram. Mən isə bəzən istifadə edirəm. Əsasən də təhlükə yarandığı zaman daha məqbul sayılır.

**Şəhər sakini Nübar Təhməzova:** ”Sürücülərin səs siqnallarından istifadə etməsi əsasən bina evində yaşayan insanlar üçün narahatçılıq yaradır. Həmçinin bina evində xəstə olan var, körpə uşağı olan var, təbii ki,



səs siqnalları onlar üçün çox narahatlıq yaradır. Eyni zamanda mən burada işləyirəm.

Sakinlərin düşüb şikayət etdiklərinin şahidi oluram. Bununla yanaşı yolu keçən zaman birdən-birə siqnal verməkləri, insanları qorxudur. Həmçinin bu vəziyyət təhlükəli şərait yaradır”.

**Şəhər sakini Sahib Hüseynov:** ”Səs siqnalları vacib zamanlarda, əsasən də qə-



zanın qarşısını almaq üçün istifadə edilməlidir. Yəni hər zaman səs siqnalların istifadə etmək düzgün deyil.

İnsanların narahatlığına çox pis təsir göstərir. Əsasən də bizim kimi yaşlı insanların əsəblərinə təsir edirlər. Onsuz da səsli-küylü bir şəhərdir. Bununla da insanların əsəbləri gərginləşir”.

**Milli Məclisin deputatı Vüqar İskəndərov** bildirir ki, bu mənada, bu gün Azərbaycan dövləti və aidiyyəti mərkəzi icra haki-



miyyətləri, eləcə də onların tabeliyində olan qurumlar bu istiqamətdə ciddi şəkildə işləyirlər: ”Bizi narahat edən digər bir məsələ isə tıxac vaxtı, hətta tıxac olmayan hallarda belə avtomobillərdən kütləvi şəkildə və lüzumsuz yerə səs siqnallarının verilməsidir. Əlbəttə, yol hərəkətində səs siqnalının öz funksiyası var və zəruri hallarda istifadə olunmalıdır. Lakin biz onun ifrat dərəcədə istifadə olunduğunu müşahidə edirik. Daha inkişaf etmiş ölkələrdə bu, yalnız son dərəcə zəruri hallarda tətbiq olunur.

Bakıda isə, təəssüf ki, bu məsələ hələ də öz aktuallığını qoruyur. Şəhərdə insanların və avtomobillərin çoxluğu təbii olsa da, səs siqnallarının səbəbsiz və ardıcıl istifadəsi narahatlıq doğurur. Qeyd etmək lazımdır ki, ölkəmizə gələn turistlər Bakının gözəlliyini vurğulasa da, çox vaxt səs siqnallarının ifrat istifadəsini narazılıqla qeyd edirlər. Bu da bizim şəhərimizə dair formalaşan ümumi təəssürata mənfi təsir göstərə bilər”.

Bununla yanaşı **nəqliyyat eksperti Elməddin Muradlı** da məsələ ilə bağlı fikirlərini bildirib. Onun sözlərinə görə, lüzumsuz yerlərdə səs siqnallarından istifadə etmək



qadağandır və 30 manat cəriməsi var: ”Bu 'Yol Hərəkəti haqqında' qanunda da izah olunub. Eyni zamanda “İnzibati Xətalar Məcəlləsində” öz əksini tapır. Qaydalar belədir ki, sürücüyə yaşayış məntəqələrində yalnız yol nəqliyyat hadisələrinin qarşısını almaq üçün, yaxud da digər sürücünü və ya digər hərəkət iştirakçısını piyadanı, məlumatlandırmaq məqsədilə xəbərdarlıq edilə bilər. Amma məktəblərin qarşısında, xəstəxanaların qarşısında, işıqforda və s. necə gəldi siqnaldan istifadə edirlər.

Siqnal həyatımızın bir parçasına çevrilib. Bu bir mədəniyyət məsələsidir. Bəzi soydaşlarımız xarici ölkələrə gedəndə çəkiliş aparırlar və paylaşırlar ki, görürsüz şəhər necə sakitdi, heç kim siqnal vermir. Adam yaxşı mənada paxıllıq edir ki, bu şəhər mədəniyyəti bizdən uzaq düşüb. Məsələn işıqforda bəzən səs siqnallarından istifadə edirlər və mən bəzi hallarda o insanları qınamıram. Çünki qarşıdakı nəqliyyat vasitəsinin sürücüsü başı telefona qarışıb. Əslində işıqforda telefona baxmaq qanunla qadağan deyil, nəqliyyat vasitəsi dayanmış formada telefondan istifadə etmək olar. Amma audeçilik də olmaz.

Yaşayış məntəqələrindən kənarda artıq, yalnız ötmə zamanı qarşıdakı nəqliyyat vasitəsinin sürücüsünü işıq və yaxud da, səs siqnalları vasitəsilə xəbərdar edib ötmə əməliyyatına başlamaq olar. Bu adətən çox zolaqlı yollarda heç bir problem yaratmır. Çünki 3 -4 zolaqlı yollardı. Amma 1-2 zolaqlı yollarda bu vacibdir ki, bu siqnallardan istifadə edəsən”.

***Xeyrənsə Piriyeva***



# Bir milyard ölüm gözlənilir

***Siqaret çəkməyin zərərləri haqqında illərdir ki, bütün mətbuat orqanları, səhiyyə bar-bar bağırsa da, lakin söz dinləyən yoxdur. Siqaretin qiyməti də tez-tez qaldırılır. Lakin görünür bu, elə bir alışqanlıqdır ki, ona nə ictimai qınaq təsir edir, nə maarifləndirmə kar salır, nə ağsaqqal sözü keçir, nə də həkim məsləhəti, nə də qiymət artımı. Nəticə isə bu olur ki, dünyada hər il milyonlarla insan siqaret zəhərinin qurbanı olur. Hesablamalara görə, tütünün törətdiyi xəstəliklər nəticəsində hazırda dünyada hər il 8 milyondan artıq insan ölür. Onların 1 milyonu ətrafa yayılan tütün tüstüsü ilə nəfəs alan passiv tütün çəkənlərdir.***



## O qədərmi vacibdir?..

XX əsrdə tütün epidemiyası bütün dünyada 100 milyon insanın həyatına son qoyduğu halda, XXI əsrdə tütündən 1 milyard insanın ölümü gözlənilir. Çünki tütün ağ ciyər və ürəkdamar, həmçinin bronxial xərçəng, xroniki bronxit, emfizema və bir çox xəstəliklərin səbəbkarıdır.



Maraqlıdır, dünyada elə bir adam tapılmaz ki, siqaretin zərərləri haqqında bilməmiş olsun. Belə isə insan nə qədər şüursuz məxluqdur ki, bilə-bilə istifadə etdiyi ona zərərdir, lakin ondan əl çəkmir. Yəni bu, o qədərmi vacibdir?..

Həqiqətən düşünəndə adamın həm gülməyi gəlir, həm də ağlamağı. Nə üçün insan sağlamlığına bu qədər sıradan bir hal kimi baxır? Nə üçün bütün dünyada siqaretlə bu qədər mübarizə aparılsa da, bu, insanlara əsla təsir etmir. Sanki bu barədə eşitmirlər, bilmirlər.

Hər dəfə bu həyat üçün təhlükəni dodaqlarına yaxınlaşdıranda onun zərərləri haqqında eşitdiklərini xatırlamırlar. Xatırlamırlar ki, ildən-ilə siqaret çəkənlərin sayı artır. Bu say artdıqca ölümlərin də sayı artır...

Dövlət Statistika Komitəsinin "Ev Təsərrüfatı Tədqiqatının Əsas Yekunları"na dair 2020-ci ildə hazırlanan hesabatına görə, yaşı 15-dən yuxarı olanlar arasında siqaret çəkənlər 15,3 faiz təşkil edir. Bu rəqəm cəmi bir il sonra 15, 1 faiz olub.

Yaş qruplarına gəldikdə isə, siqaret çəkənlərin 0,2 faizi 15-19 yaşda (2021-ci ildə 0,1 faiz), 13,4 faizi 20-44 yaşda (2021-ci ildə 13,1 faiz), 21,7 faizi 45-64 yaşda (2021-ci ildə 21,9 faiz), 30,5 faizi (2021-ci ildə 14,4 faiz) 65 yaşdan yuxarı olan şəxslərdir. DSK-nın məlumatına görə, 15-19 yaşlılar 1,8 il (2021-ci ildə 1,0), 20-44 yaşlılar 10,1 il (2021-ci ildə 10,1), 45-64 yaşlılar 21,7 il (2021-ci ildə 21,5), 65 yaşlılar isə 30,5 il (2021-ci ildə 30,1) siqaret çəkir. 15-19 yaşlılar gündəlik olaraq orta sayla 9,5 (2021-ci il 10,0), 20-44 yaşlılar 13,9 (2021-ci il 13,8), 45-64 yaşlılar 15,5 (2021-ci il 15,5), 65 yaşdan yuxarı olan şəxslər isə 15,4 ( 2021-ci il 15,4) ədəd siqaret çəkirlər.

Göründüyü kimi, son illərin statistik hesabatında rəqəmlər bir qədər artıb-azalsa da, lakin elə bir fərqli rəqəm müşahidə olunmur. Buradan da o qənaətə gəlmək olur ki, bu qədər maarifləndirmə, bu qədər mübarizə qarşısında hələ də insan qəflət yuxusundan oyanıb sağlamlığının qeydinə qalmaq fikrində deyil. Məlumata görə, Azərbaycanda hər il 15 min nəfər tütün və onun yaratdığı müxtəlif xəstəliklərdən dünyasını dəyişir.



ÜST-nün Qlobal tütün epidemiyası hesabatının son məlumatına əsasən, Azərbaycanda tütündən istifadə kişilər arasında təxminən 40 faiz, qadınlar arasında isə 3 faizdir. 2020-ci ildə böyüklər arasında tütünçəkmə 24 faiz təşkil edib. 2017-ci ilin məlumatına əsasən isə yaşı 15-dən yuxarı olan kişilər arasında siqaretçəkmə təxminən 33,1 faiz təşkil edib, yəni son illərdə ölkəmizdə tütündən istifadə edənlərin sayı artıb.

## Gənclikdən başlanan yol...

2022-ci ildə siqaret çəkmə tezliyinə görə 15 yaşdan yuxarı əhali arasında hər gün çəkənlər 96,1, aradabir çəkənlər 3,9, 15-19 yaş arasında əhali arasında hər gün çəkənlər 64,7, aradabir çəkələr 35,3, 20-44 yaş arasında hər gün çəkənlər 94,9, aradabir çəkənlər 5,1, 45-64 yaş arasında hər gün çəkənlər 97,4, aradabir çəkənlər 2,6, 65 yaş və yuxarı olanlar arasında hər gün çəkənlər 95,8, aradabir çəkənlər 4,2 faiz təşkil edir.

Göründüyü kimi, siqaret çəkmək alışqanlığı əsasən gənclikdən başlanır. Bu bəlaya gənclikdə düçar oldunsa, səninlə bir ömür yol gedəcək və yaşlı çağlarında elə bir problemlə üz-üzə qoyacaq ki, nə ondan əl çəkə biləcəksən, nə də yaşamaqdan vaz keçə biləcəksən. Ölümlə olum arasındakı məsafədə isə siqaret çəkmək yaşamağa üstün gələcək. Beləliklə xəstə kimi yaşayıb ölümünü gözləyəcəksən, çünki gənclikdən başlanıb gələn alışqanlığından əl çəkə bilməyəcəksən. Buna iradən yetməyəcək.

Gənclik çağında övladlarımızı həm biz valideynlər, həm də cəmiyyət qorumalıdır. Çünki siqaretlə insan arasında qısa bir yol var. O yolda siqaret səni üstələdisə, səninlə bir ömür yoldaşdır. Yox, əgər sən ona üstün gəldinsə, deməli, bir ömür sağlam həyat səni gözləyir.



Eləcə də məktəbdə yeniyetmə oğlan və qızlarla məktəb psixoloqları iş aparmalıdır. Oğlanlara siqaretlə bağlı dost təkliflərinin yersiz olduğunu başa salmalıdır. Qızlara siqaretin modanı tamamlayacaq vasitə olmadığını anlatmalıdır. Çünki onlar həyatın astanasındadır. Nəyi neçə edəcəklərini anlamırlar. Bu yaş dövründə qorunan uşaq gələcəyə tütünsüz bir həyatla gedir. Tüstüsüz həyat isə sağlam ailə, sağlam övladlar, gözəl gələcək deməkdir.

Yox, əgər uşaqlarımızla vaxtında məşğul olmasaq, onlara vaxt ayırmasaq, qarsıda onları tüstülü bir həyat gözləyəcək. Bu isə gələcəyin qeyri-sağlam övladları, özlərinin isə hər an ölümü deməkdir. Ümumilikdə isə gələcək üçün xəstə ailənin təməlidir.

## Siqaret çəkən qadının dünyaya gətirdiyi uşaq cinayətə meyilli olur

Kişilərin siqaret çəkməsi nə qədər təhlükəlidirsə, qadınların ondan istifadəsi qat-qat təhlükəlidir. Çünki qadın gələcəyin anasıdır. O, dünyaya uşaq gətirəcək. Ana nəsil artırandır. Gələcək nəsillərin sağlamlığına birbaşa cavabdeh şəxsdir. Bəs belə isə, ana olacaq qadın əgər siqaret çəkirsə, onun sağlam övlad həyata gətirməsi mümkündürmü?

Mütəxəssis həkimlər vurğulayır ki, 10 il ərzində siqaret çəkən qadınların tibbi müayinələrinin nəticələrinə əsasən, onların siqaret çəkməyən qadınlara nisbətən 25 dəfə artıq ağciyər xərçəngi xəstəliyinə tutulması aşkarlanıb.

ABŞ-da 30-55 yaş arası 100 000 qadının iştirak etdiyi böyük tədqiqatın nəticələrinə əsasən, gün ərzində 1-14 arası nadirən siqaret çəkən qadınlarda ani ürək dayanması ilə əlaqədar erkən ölüm riski kifayət qədər yüksəkdir. Maraqlıdır ki, həm də qadınlar kişilərlə müqayisədə siqareti atmaq üçün daha çox çətinlik çəkirlər.

Araşdırma apararkən belə bir maraqlı fakta da rastlaşdım: Harvardda aparılan tədqiqat nəticəsində bəlli olub ki, hamiləlik dövründə siqaret çəkən qadınların dünyaya gətirdiyi uşaqlar cinayətə qarşı daha çox meylli olur. Tək bu fakt siqaretin tərkibini, onun nələrə qadir olduğunu göstərmirmi? Baxın ki, siqaretin qanda yaratdığı zəhərlənmə dölə necə təsir edirsə, onun gələcək həyatında cinayətə meyllik yaranır. Həqiqətən çox maraqlı nüansdır. Siqaret çəkənlərin bəlkə də hansına sual versən ki, övladının gələcəkdə cinayətə meylli olacağını bilirsənmi, adama gülərlər. Lakin elm bunu sübut edir və bu, qaçılmazdır.

Dövlət Statistika Komitəsinin hesabatında ölkəmizdə qadınların siqaret çəkməsi ilə bağlı məlumat göstərilməsə də, hamımıza məlumdur ki, siqaret çəkən qadın və qızlarımızın sayı heç də az deyil. Qadın gözəllik mücəssəməsidir. Bütün varlığı, vücudu ilə gözəllik saçır. Bəs barmaqlar arasında tutulan, dodaqlar arasına qoyulan siqaret, ağızdan çıxan tüstü, üst-başdan ətir əvəzinə gələn qoxu bu gözəlliyə xələl gətirmirmi?

## Siqaret çəkənlərin tüstüsündə boğulanlar

Çox təəssüf ki, siqaret çəkməyənlər çəkənlərin qurbanı olurlar. Onların tüstüsündə boğulub zəhərlənirlər. Belə ki, Azərbaycanda siqaret çəkməyənlərin 29% evdə, 41% isə qapalı ictimai yerlərdə tütünün təsirinə məruz qalır.

Böyüklər arasında passiv tütünçəkmə göstəriciləri son illər azalmasına baxmayaraq, hələ də yüksək olaraq qalır. Araşdırmalara görə kişilərin 28% iş yerlərində, qadınların 23% evdə tütün tüstüsünün təsirinə məruz qalır.

Bəzən siqareti tərgitmək istəyən insanlara da rast gəlirik. Onlar elektron siqaretə keçməklə siqareti tərgidəcəklərini zənn edirlər. Lakin mütəxəssis həkimlər deyir ki, elektron siqaretdən istifadə etmək ən azı adi siqaret qədər təhlükəlidir. Siqaretin insan orqanizmi üçün ən təhlükəli tərəfi onun tərkibindəki qətrandır. Həkimlər də ən əsas buna görə insanlara siqaretdən imtina etməni məsləhət görür. Nikotin aludəçiləri isə çıxış yolunu elektron siqaretdə görürlər. Amma yanılırlar, siqaretin tərkibində olanlar demək olar ki, elektron siqaretdə də mövcuddur və bu, insan sağlamlığı üçün birbaşa təhlükədir.

Bu məsələlərin ciddiliyi nəzərə alınaraq ölkəmizdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun da qüvvəyə minib. Qanunu pozanların 30 manatdan 1000 manata qədər cərimə olunması müəyyənləşdirilib. Qanuna əsasən, tütün məmulatlarından (siqaret), sulu qəlyan və elektron siqaretdən istifadə müəyyən yerlərdə qadağan olunub.

Hələ də aramızda bu qanuna zidd gedən insanlar var ki, onlarla hər kəs qarşılaşıb. Beləri haqqında tədbirlərin görülməsi sözsüzdür. Lakin onlar gözdən uzaq yerlərdə məqam düşən kimi ətrafa tüstülərini yaymaqla məşğuldurlar. Çox təəssüf, onlar arasında sürücülər də var ki, bəzən taksidə utanmazcasına səndən "siqaret çəkə bilərəmmi?",- deyə soruşurlar... Nə qədər ki, hələ də qanundan xəbərsiz insanlar var, onlar cəmiyyət arasında özlərini lazımi səviyyədə apara bilməyəcək və bizlər də passiv siqaret çəkən olaraq qalacağıq.

***Mətanət Məmmədova***

# “Fransa məqsədli şəkildə müharibə görüntüsü yaratmağa çalışır”




“Antalya Diplomatiya Forumunda Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində görüşün keçirilməsi müsbət haldır. Bu, tərəflərin sülhə yaxınlaşması baxımından əhəmiyyətlidir. Amma bu prosesdə Ermənistan sona qədər iradə sərgiləməlidir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Nigar Məmmədova deyib. O bildirib ki, Azərbaycan tərəfi Diplomatik Forumda bir daha normallaşma prosesilə bağlı mövqeyini bəyan etdi - Ermənistan Konstitusiyası dəyişdirilməli, ATƏT-in Minsk Qrupu ləğv edilməlidir: ”Yalnız bundan sonra sülh sazişinin imzalanması, iki ölkə arasında dövlətlərarası münasibətlərin qurulması yolunda heç bir əlavə maneə olmayacaq. Ararat Mirzoyan isə bildirdi ki, ölkəsinin hazırkı məqsədi sülh sazişinin imzalanacağı yeri və günü təyin etməkdir. Amma yalnız rəsmi Bakının şərtləri qəbul olunduqdan sonra biz sülh sazişinin imzalanacağı yerin və günün təyin edilməsin-



dən danışmaq mümkündür. Bu barədə Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov da bildirdi ki, biz sülh sazişinə köklənsək də, Ermənistan Konstitusiyasında ziddiyyətli məqamlar var. Azərbaycan bu tələbində haqlıdır. Beynəlxalq təcrübədə də bu, normal qəbul olunur.

Ermənistan Xarici işlər nazirinin ittihamının isə heç bir əsası yox idi. Çünki Azərbaycan Konstitusiyasında Ermənistanın mövcud ərazisinə dair hər hansısa bir ərazi iddiası yoxdur.

Ümumiyyətlə, son 5 ildə, yəni 44 günlük müharibədən sonra regionda sülh və əməkdaşlıq üçün unikal imkan yaranıb. Regionun digər ölkəsi Gürcüstan da Antalya Diplomatiya forumunda sülh və əməkdaşlıqla bağlı mövqeyini bildirdi. Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili də qeyd etdi ki, Ermənistan və Azərbaycan Gürcüstana arxalana bilər, rəsmi Tbilisi regionumuzda dialoqu və əməkdaşlığı asanlaşdıracaq bütün mümkün vasitələri təqdim etməyə hazırdır. Cənubi Qafqaz ölkələrinin uzun fasilədən sonra normal qonşuluq münasibətləri qurması əlbəttə, arzuolunandır. Sülh və əməkdaşlıq təklifi ilk dəfə Azərbaycan tərəfindən irəli sürülüb. Müharibə başa çatdıqdan dərhal sonra - 2021-ci ildə məhz biz düşmənçilik səhifəsini bağlamağı təklif etdik. 2022-ci ilin ilk aylarında sülh razılığının beş əsas bəndi Ermənistana təqdim edildi. Təsadüfi deyil ki, sülh sazişinin ilk layihəsi də Azərbaycan tərəfindən yazılıb və Ermənistana təqdim edilib. Təxminən iki il yarımdan sonra, yəni bir ay əvvəl müzakirələr başa çatdı və mətnlə bağlı razılıq əldə olundu. Təbii ki, sazişin mətninin razılaşdırılması hələ onun imzalanması demək deyil. Azərbaycanın şərtləri mütləq yerinə yetirilməlidir.

Amma Diplomatiya Forumundakı görüşdən sonra Ermənistanın Xanazax yaşayış məntəqəsi istiqamətində atəş açılması və nəticədə mədəniyyət mərkəzinə zərər yetirilməsi barədə Azərbaycana qarşı dezinformasiya yayması, həmçinin Fransanın Avropa və xarici işlər naziri Noel Baronun canfəşanlığı əsas mahiyyəti ortaya qoyur. Görünən budur ki, Fransa tərəflərin bir araya gəlməsini, sülh istiqamətində danışıqlar aparmasını həzm etmir, regionda müharibə görüntüsü yaratmağa can atır. Ermənistan isə Fransanın diktəsilə sülhdən yayınmaqdansa sülh prosesilə bağlı əməli addımlar atmalıdır”.

***Söylü Ağazadə***



# ”Aldanmış kəvakib”(lər)

**MƏTANƏT**

***İndi həm də aldatmaq dövrüdür. Hər dəfə aldadanlardan və aldananlardan söhbət düşəndə xəyalıma Mirzə Fətəli Axundovun ”Aldanmış kəvakib”i gəlir. Düzdür, oradakı aldanmışlarla buradakı aldanmışlar arasında fərq xeyli olsa da, yalnız aldanmaq elə aldanmaqdır, mövzusu fərqli olsa da. Aldadan da müsəlmandır, aldanan da.***

Deməli, o zaman rəiyyət də avam idi, şah da. Münəccimin sözü ilə şah aldanır və rəiyyət bəladan qurtarır. Lakin rəiyyət avamlığı ilə yenidən aldanır və yenidən bəlaya düçar olur. Şah tərəfdarları başlarına gəldiyi üçün aldanmağın nə olduğunu bilir və insanları yenidən aldatmağı bacarırlar. O dövrdən düz iki əsr keçsə də, görünür, xalq arasında avamlar hələ də qalmaqdadır ki, onları aldadırlar və onlar da aldanırlar. Düz iki əsr sonra, avamlıqdan maarifə doğru ötən iki yüz il ərzində bu gün yenə aldananlar varsa, ta onlara nə deyək...

Guya ki, dövrümüz texnologiya dövrüdür. Lakin elə başımıza nə oyun açırsa, bu texnologiyalar açmırmı? Bir də texnologiya nə etsin axı, bizdə ağıl olmayandan sonra...

Deməli, əynindən-başından, uşağının boğazından kəsib hərə bir telefon alıb qoyub cibinə. İçini də doldurub sosial şəbəkələrlə. Həyatdan əlini üzüb, ikinci həyata baş vuranlar var ki, gün boyu saatlarla qalır bu sosial şəbəkələrdə. Bu sosial şəbəkələr də doludur fır-fırıldaq adamlarla. Yəni onlar aldatmağa adam axtarır. Bizim bu avamlar da olur onların hərifi. Bunlardan cəmi 1-2-nə nəzər salaq...

Hərifləyirlər, gənc, gözəl qadınlara sevgi dastanı söyləyir, iş tapmaq istəyən qadınlara guya köməklik göstərmək istəyirlər. Saxta profillərlə qadınlarla elə şirin, inandırıcı dil tökürlər ki, bu yazıqlar da inanmış olur. Fakt var ki, onlardan hələ rayonlardan durub Bakıya gələnləri də var. Nədir, nədir ki, filankəsə aşiq olub. Hələ ailə-uşağını atanlar da var onların içərisində. Və yaxud da bu fırıldaqçıların şirin dilinə aldanıb iş üçün kilometrlərlə yol qət edib gəlib burada iş əvəzinə başqa təkliflərlə qarşılaşanlar da var.

Nə deyim sənə internet əsri? Səni parça-parça olub yerə tökülsən deyim, bir günün güdazına gedəsən deyim, nə deyim ki, ürəyimdən tikan çıxmış olsun?..

Bu müsəlmanlığından, namusundan, arından keçən işbazlara nə deyim? Allah sizin cəzanızı versin, deyim. Bu yazıqları onsuz da Allah avam yaradıb da. Nə üçün onlardan istifadə edirsiniz?..

Yaxşı, siz dindən-mənsəbdən uzaqlaşmısınız, deyək ki. Bəs bu yazıqlara nə üçün divan edirsiniz? Nədir məqsədiniz? Axı sizin də ana-bacınız olmamış deyil. Belə isə bu hərəkətlərə başlayarkən heç onları da göz önünə gətirmirsiniz?

Bəli, biz çox deyirik, görünür ki, bizi dinləyən azdır. Deyəndə ki, bu sosial şəbəkələr sosial bəladır, bizi qınayanlar olur. Bu sosial şəbəkələr neçə-neçə ailə dağıdıb, neçə-neçə sevgilini bir-birindən ayırıb, neçə-neçə nişanı geri qaytarıb.

Budur, indi də onlarla aldatma, onlarla aldanma...

Ya biz şah Abbas ağlındayıq, ya o dövrün rəiyyəti dünyagörüşdəyik, ya da bəlkə də onlar bizdən dünyagörüşlü idilər. Nə isə... Heç deyəsən, nə şah Abbasdan, nə də rəiyyətindən geri qalırıq. Çünki biz də həm şah Abbas, həm də rəiyyəti kimi aldanırıq. Aldanıb ”Aldanmış kəvakib”(lər) olmağın isə sonradan heç bir mənası yoxdur. Şah Abbas da aldandı, rəiyyət də. Sonra qandılar ki, nə qədər aldanıblar, artıq onda güc idi. Söhbəti bütün çılpaqlığı ilə edə bilmirik. Çünki bu aldatmalar və aldanmalar mövzu etibarilə çox utandırıcıdır. Lakin bir onu deyə bilirik ki, ”Aldanmış kəvakib”(lər) olmayaq: ayıbdır, günahdır...

# Körpəni ana südü ilə qidalandırmanın üstünlükləri BƏLLİ OLDU



## HƏKİM AÇIQLADI

”Ana südü yenidoğulmuş körpə üçün əvəzedilməz və steril qida hesab edilir. Ana südü daim əlverişli temperaturdadır. O, körpənin sağlam böyüməsi və inkişafı üçün lazım olan bütün enerji və qida maddələrini təmin edir. Ana südü tərkibində balanslaşdırılmış komponentlərin, hormonların, müxtəlif boy və müdafiə faktorlarının (immunoqlobulinlər, fermentlər), eləcə də yüksək miqdarda bioloji aktiv maddələrin olması baxımından körpələrin böyümə və inkişafı üçün unikal hesab edilir. Ana südü mədə-bağırsaq sistemində faydalı bakteriyaların inkişafına şərait yaradır. Allergik reaksiyaların əmələ gəlmə riskini azaldır”. Bunu SİA-ya açıqlamasında Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Layihələrin əlaqələndirilməsi şöbəsinin müdir müavini, həkim Ülkər Camalova deyib. Ülkər Camalova sözlərinə belə davam edib: ”Ana südünün tərkibində uşaq orqanizmi üçün vacib olan bütün vitamin və mikroelementlərə də rast gəlinir. Ana südünün tərkibində xüsusi əvəzsiz yağ turşuları da var ki, onlar uşağın inkişafı üçün (xüsusən də beyin və bağırsağın inkişafı) olduqca vacibdir. Ana südünün əsas üstünlüyü ondan ibarətdir ki, körpənin çəkisinin daha yaxşı artmasına kömək edir, xəstəliklərdən qoruyur (mədə-bağırsaq infeksiyaları, tənəffüs yollarının xəstəlikləri). Bundan əlavə ana südünün həzmi də olduqca asandır. Ana südü heç bir xəstəlikdə qida rejimini pozmağa imkan vermir və təmiz maye mənbəyi olaraq orqanizmi susuzlaşmadan müdafiə edir. Məsələn, diareya zamanı uşaqda ana südünün qəbulu davam etdirilir, lakin digər maye və qidalardan əksər hallarda imtina edilir. Ana südü ilə qidalandırma ”Ani uşaq ölümü” sindromunun yaranması riskini azaldır. Və ən əsas ana südü, ana ilə körpə arasında bağlılıq yaradır. Ana südü ilə qidalandırma uşaqlarda erkən yaşlarda diabet, piylənmə, hipertoniya xəstəliyi və aterosklerozun əmələ gəlmə riskini azaldır.

***- Ana südü ilə qidalandırmanın ananın sağlamlığına təsiri?***

Körpəni əmizdirmək doğuşdan sonra ananın orqanizminin bərpasına kömək edir. Süd vermək hormon balansını bərpa edir. Süd ifrazı zamanı oksitosin hormonu ifraz olunur, bu da uşaqlığın yığılmasını tezləşdirir və qanaxma ehtimalını azaldır (bununla bağlı ana ölümü göstəriciləri aşağı düşür). Qanaxmanın azalması nəticəsində həmçinin hemoqlobin ehtiyatları ananın bədənində qorunur və dəmir ehtiyatları ilə bağlı vəziyyət yaxşılaşır. Ananın hamiləlikdən əvvəlki çəkisini bərpa etməyə kömək edir (süd istehsalı gündəlik 500-600 kalori yandırır, bu da çəki itirməkdə kömək edir). Hamiləlikdən qorunmanın fizioloji metodudur: döşlə qidalanmanın hamiləliyin qarşısını alan üsul kimi effektivliyi doğuşdan sonra 6 ay (yalnız ana südü ilə qidalandırma) müddətində 98%təşkil edir.

Ananın süd vəziləri və yumurtalıqları müxtəlif şişlərdən qoruyur, laktostaz və mastitin qarşısını alır, osteoporozun qarşısını alır. Süd vermək zamanı ifraz olunan hormonlar (oksitosin və prolaktin) anada sakitlik və məmnunluq hissi yaradır. Doğuş sonrası depressiyanın qarşısını almağa kömək edir.

***- Ana südü ilə qidalandırma körpənin neçə aylığına qədər davam etməlidir?***

Amerika Pediatriya Akademiyasının tövsiyəsinə görə, körpə ilk 6 ay ərzində yalnız ana südü ilə qidalandırılmalı və bu, ən azı 1 yaşa qədər davam etdirməlidir. 6 aydan sonra isə əlavə qidalarla birlikdə 2 yaş və ya daha uzun müddət Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) əmizdirilmənin davam etməsini tövsiyə edir.

***- Ana südü ilə qidalandırmaya hansı hallarda (tibbi göstəriş) icazə verilmir?***

- İİV-ə yoluxmuş ana hamiləlik, doğuş və ya əmizdirəndə infeksiyanı körpəsinə ötürə bilər. Amma əgər ana müvafiq dərmanlar qəbul edərsə, o zaman İİV-ə yoluxma riski 1-2%-ə qədər azalır və ana südü ilə qidalanma davam edilə bilər. ÜST tövsiyə edir ki, ana südü ilə qidalanan İİV-ə yoluxmuş analar ARV(antiretrovirus dərmanlar) alsınlar və uşaqları qidalandırmaq üçün ÜST təlimatlarına əməl etsinlər.
- Kəskin mərhələdə psixi pozğunluqlar.
- Açıq vərəm.
- Əgər qadın diyetada oturubsa və yaxşı qidalana bilmirsə, süd vəzilərinin çıxardığı süd uşaq üçün bütün faydaları təmin etmir. Bu, tez-tez yeni doğulmuş körpənin düzgün qidalanmamasına, raxit xəstəliyinin inkişafına, əqli və fiziki inkişafda problemlərə səbəb olur.
- Çox vaxt ana südü ilə qidalanmanın uşaq üçün zərəri odur ki, ana südü ilə yanaşı qadının qəbul etdiyi dərmanlar da onun orqanizminə daxil ola bilər. Bu, körpənin sağlamlığına mənfi təsir göstərəcək və bir çox ciddi nəticələrə səbəb ola bilər. Bu dərmanların siyahısı kifayət qədər uzundur, ona görə də bu və ya digər dərmanı qəbul etməyə başlamazdan əvvəl ana südü ilə qidalanan qadın mütləq pediatr və ya ginekoloqu ilə məsləhətləşməlidir.

***Körpələrdə əks göstəriş:***

- Metabolik xəstəliklər bəzi irsi xəstəliklərdir, uşağın orqanizmi ana südündən müəyyən maddələri qəbul edə bilmədiyi və yığıldığı üçün, körpədə ciddi və həyati üçün təhlükəli nəticələrə gətirib çıxardır.
- Qalaktozemiya nadir irsi xəstəlikdir. Uşağın həyatını qorumaq üçün ana südü və bütün süd məhsullarını rasiondan ciddi şəkildə xaric edilməsi tələb olunur”.

***Qumral Bahadırqızı***

# Hamiləlik zamanı saç boyama və makiyaj haqqında nə bilmək lazımdır?

***Hamiləlik qadının həyatında ən xüsusi dövrlərdən biridir. Bu dövrdə ana normal həyatına davam edərkən körpənin sağlamlığı ilə bağlı narahatlıqlar müxtəlif suallar doğura bilər. Xüsusilə kosmetik məhsullar, saç boyası və makiyajla bağlı tez-tez rast gəlinən narahatlıqlar gələcək anaların zehnində sual işarələri yarada bilər. Bəs, hamiləlik zamanı saç boyamaq və makiyajdan istifadə etmək təhlükəsizdirmi? SİA mövzu ilə bağlı araşdırma aparıb.***



## Hamiləlik zamanı saçların rənglənməsi: risklər və tövsiyələr

Hamilə qadınların ən çox verdiyi suallardan biri də "Hamiləlik zamanı saçlarımı rəngləyə bilərəmmi?" sualıdır. Saç boyalarının tərkibində olan kimyəvi və bəzi kanserogen maddələr anaların zehnində narahatlıq yarada bilər. Baş dərisi qan damarları ilə zəngin bir bölgə olduğundan, bu bölgədən kimyəvi maddələrin udulması potensial olaraq körpəyə çata bilər. Bununla belə, tədqiqat hamiləlik zamanı saç boyasının istifadəsinin birbaşa təhlükə yaratdığına dair heç bir sübut tapmayıb.





## Körpə üçün risk varmı?

Saç boyalarının uşağa birbaşa zərər vermədiyi bildirilsə də, xüsusilə hamiləliyin ilk trimestrində, körpənin orqan inkişaf mərhələsində olduğu müddətdə körpəni qorumaq üçün kimyəvi tərkibli maddələrdən qaçınmaq tövsiyə olunur. Bu dövrdə mümkünsə daha az kimyəvi tərkibli bitki mənşəli saç boyalarını seçmək daha təhlükəsiz ola bilər. Hamiləliyin sonrakı dövrlərində daha az kimyəvi tərkibli saç boyalarından istifadə heç bir risk daşımır.

## Hamiləlik zamanı makiyaj və dırnaq boyasından istifadə

Hamiləlik dövründə makiyaj və dırnaq boyası istifadə etmək ümumiyyətlə təhlükəsizdir. Hamiləlik dövründə dəri dəyişiklikləri ilə qarşılaşa bilərsiniz və bəzi qadınlar bu dövrdə dəriyə qulluqda dəyişiklik edə bilərlər. Bununla belə, istifadə edilən kosmetik məhsulların tərkibinə diqqət yetirmək lazımdır.

*Makiyaj Məhsulları:*

Gündəlik makiyaj üçün istifadə etdiyiniz nəmləndirici, tonal krem və göz makiyajı məhsulları hamiləlik dövründə ümumiyyətlə zərərsizdir. Bununla belə, bəzi dəri müalicəsi məhsulları hamiləlik dövründə istifadə edilməməli olan maddələr ehtiva edə bilər. Xüsusilə sızanaq müalicəsi üçün istifadə edilən kremlər və dərmanlar hamiləlik kateqoriyasına görə araşdırılmalı və həkiminizlə məsləhətləşərək istifadə edilməlidir. Çünki bəzi dərmanların körpəyə zərər verə biləcək təsiri ola bilər.

ARAŞDIRMA

*Dırnaq boyasından istifadə:*

Hamiləlik dövründə dırnaq boyası istifadə etməyin heç bir zərəri yoxdur. Lakin dırnaq boyası materiallarının tərkibində olan bəzi kimyəvi maddələrin intensiv istifadəsi sağlam hava axınının qarşısını ala bilər. Mümkünsə, daha az kimyəvi tərkibli olan dırnaq boyalarına üstünlük vermək yaxşı seçim ola bilər.

## Ümumi məsləhətlər və nəzərə alınmalı olanlar

*İlk üç ayda daha diqqətli olun:*

Körpənin orqan inkişafı zamanı kimyəvi maddələrdən qaçınmaq daha sağlam ola bilər.

*Həkiminizlə məsləhətləşin:*





Hamiləlik dövründə istifadə edəcəyiniz hər hansı dərman və ya kosmetik məhsul üçün mütləq həkiminizlə məsləhətləşin. Xüsusilə hamiləlik dövründə terapevtik məhsulların təsiri fərqli ola bilər.

*Təbii məhsullara üstünlük verin:*

Tərkibindəki kimyəvi maddələrdən qaçınmaq üçün təbii və bitki mənşəli məhsullara üstünlük verə bilərsiniz.



*Dərinizə qulluq edin:*

Nəmləndirici və dəriyə qulluq məhsulları istifadə edərkən, bu məhsulların tərkib hissələrinin hamiləlik üçün təhlükəsiz olub olmadığını yoxlayın.

Nəticə olaraq, hamiləlik dövründə saç boyası və makiyajdan istifadə ümumiyyətlə təhlükəsiz olsa da, tərkib hissələrinə diqqətli olmaq lazımdır. Kimyəvi maddələrdən qaçınmaq, təhlükəsiz məhsullar seçmək və həkim tövsiyələrini nəzərə almaq gələcək anaların həm özlərinin, həm də körpəsinin sağlamlığını qorumaq üçün böyük əhəmiyyət kəsb edir.

***Ayşən Vəli***

# Ermənilər düzələn "zad" deyil



Ermənistan hər keçən gün siyasi həyasızlığını artırır, Azərbaycan torpaqlarını uzun müddət işğal altında saxlaması səbəbindən beynəlxalq aləmdə pis imic qazandığını düşündüyümüz halda, əksinə bu qondarma ölkə sanki heç nə olmamış kimi davranır. Üstəlik, bir az da uzağa gedərək Azərbaycanla şərtlə danışmaq istəyir, bəzi beynəlxalq qurumlar qarşısında bizə qarşı iddialar qaldırır, özünü haqlı sayır. Sanki heç nə olmayıb, nə işğal, nə talan, nə onminlərlə azərbaycanlının öldürülməsi, nə bir milyondan artıq azərbaycanlıya qarşı vandalizm aktı, onların öz torpaqlarından qovmaq, etnik təmizləmə aparmaq kimi vəhşi metodlardan istifadə. Xocalı, Malıbəyli, Kosalar, Ağdaban, Cəmilli soyqırımlarını, qətliamları, bəşəri cinayətləri törədənlərin də ermənilər olmadığı kimi davranırlar. Daha dəhşətlisi isə budur ki, ermənilər baş verənləri çox normal qəbul edirlər. 1988-91-ci illər ərzində Ermənistandan, 1994-cü ilə qədər isə keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin və ətrafdakı 7 rayonun 1 milyondan artıq azərbaycanlı əhalisinin öz evlərindən, yurd-yuvasından zorla qovulmasının məsuliyyətini daşımadıqlarını düşünürlər. Sual olunur, niyə?

Yəqin ermənilər dünyanın "dərəbəylik" olduğunu düşünürlər. Beynəlxalq qanunların, standartların yalnız kağız üzərində olduğuna tam əmindirlər. Bilirlər ki, Azərbaycan müraciət etsə belə Beynəlxalq Cinayət Məhkəməsi ermənilərin törətdiyi cinayətləri min bir bəhanə ilə araşdırmaqdan imtina edəcək. Belə olmasaydı dünyada müsəlman əhaliyə qarşı törədilən soyqırımlarından heç olmasa birini məhkəmə istintaqına çıxarar və günahkarları ən sərt şəkildə cəzalandırardılar. Ermənilər cəzasız qalacaqlarını bildikləri üçün hüdudu olmayan cinayət əməllərinə imza atmaqdan çəkinməyiblər.





İkinci Qarabağ müharibəsində mülki əhalinin daha az zərər şəkməsi üçün Azərbaycan əlindən gələni etdi, erməni terrorçularının hədəflərini dəqiq atışlarla vurdu ki, dinc əhali (hərçənd işğal altında olan ərazilərimizdə dinc, günahsız, mülki statusunda olan əhali yox idi - müəllif) zərər görməsin. Ermənilərdən fərqli olaraq Azərbaycan ordusu humanistlik göstərdi, ələ keçirdiyi terrorçulara bütün beynəlxalq qanunlar çərçivəsində yanaşdı. Qaçanı qovmadı, silahsıza toxunmadı, əksinə Qarabağda yaşayan dinc erməni əhaliyə Azərbaycan qanunlarına tabe olacaqları halda bütün hüquqlarının tanınacağı vədi verildi. Amma ermənilər əvvəllər olduğu kimi, yenə də fürsəti dəyərləndirmək kimi keyfiyyətlərə sahib olmadıqlarını nümayiş etdirdilər və işğal etdikləri, sömürdükləri, istismar etdikləri, taladıqları, məhv etdikləri, xarabalığa çevirdikləri torpaqlarımızdan çıxıb getdilər.

Bu gün yenə köhnə "havalar" çalırlar, utanmadan işğaldan, etnik təmizləmədən danışırlar, bizi ittiham etməyə qalxırlar. Azərbaycan silahlı qüvvələri şərti sərhədin sıfırıncı nöqtəsindədirlər, bir addım da Ermənistan ərazilərinə keçməyiblər. Qarşı tərəfdə sərhədə yaxın kəndlərdə yaşayan erməni əhaliyə qarşı heç bir təhlükə törətmirlər. Buna baxmayaraq İrəvandakılar bu şəkilləmədən xeyli narahatdırlar və Azərbaycan tərəfinin bir gün hücuma keçəcəyi barədə məqsədli dezinformasiyalar yaradırlar. Hətta sərhədin sıfırıncı həddində dayanmağımızı Ermənistan işğal adlandırmağa cəhd edir. Ermənilərin anlamaq çətinliyi də budur, Azərbaycanın indiki şərti sərhədlərindən onlarla kilometr içərilərə doğru 20 faizdən çox ərazilərini işğal edəndə, dinc əhaliyə qarşı vandallıq edəndə nədənsə "işğal" sözü yada düşmürdü.

Ermənistan və ermənilər məğlubdurlar, apardıqları ədalətsiz müharibədə itki veriblər, oğurladıqları əllərindən çıxıb. Əvvəlcə Azərbaycanı ittiham etsələr də, sonradan "dostları"nın "məsləhəti" ilə "işğal" sözünü az-az işlətməyə başlayıblar. Çünki "doğanağın o biri ucu" məsəli yadlarına düşüb. İndiki vəziyyətdə Ermənistan "həm suçlu, həm güclü" olmaq imkanına malik deyil. Ona görə də imkanı olan, dili söz tutan erməni politoloqu öncə hakimiyyətdəkiləri, yəni Paşinyan və onun komandasını, sonra isə digər siyasi fiqurları, "eks"ləri çarmıxa çəkməyə çalışır. Stenford Universitetinin politoloqu Artur Xaçikyan deyib ki, bu gün Ermənistanın artıq regionda heç bir çəkisi yoxdur, o, artıq suveren dövlət deyil. "Ermənistan bilərəkdən regional oyundan kənarlaşdırılıb. Qonşularımız xəritəni yenidən cızarkən, bizə bir həqiqət var. Razılaşmalar bizsiz imzalanır, maraqlarımıza zidd qərarlar verilir, Qərbin vədləri getdikcə ucalaşır və getdikcə daha da boş olur. "Dünyanın kəsişmə nöqtəsi" isə Ermənistan dövlətçiliyi üçün geri dönüşü olmayan nöqtəyə çevrilib".

Politoloq əlavə edib ki, Ermənistan çoxvektorlu siyasət elan edir, amma praktikada siyasi baxımdan əvsiz görünür: "Bu, şüurlu seçimdir, geosiyasi acizliyin təzahürüdür, yoxsa sadəcə suverenlik illüziyasıdır? Ermənistan çoxvektorlu məğlubiyyət, Azərbaycan və Türkiyə isə çoxvektorlu uğur nümayiş etdirdi. Bu, ən yaxşı halda 2018-ci ildə hakimiyyətə gələnlərin, onlara güvənən insanlara vədlər verən, sonra isə hər birini pozanların ifrat səriştəsizliyinin nəticəsi idi. Ən pis halda bu adamlar Ermənistanı məğlub etmək, Rusiyanı regiondan sıxışdırıb çıxarmaq və Ermənistanı faktiki olaraq Türkiyə və Azərbaycanın nəzarəti altına keçirmək istəyən üçüncü dövlətlərin maraqlarını təmsil edirdilər".

Xaçikyan deyib ki, hər iki halda ermənilərin başına gətirilən faciəyə görə hakimiyyətə gələn qrup məsuliyyət daşımalıdır. Bu gün Ermənistan artıq suveren dövlət deyil. Qonşularımız dəhlizin Ermənistanın hansı ərazisindən keçəcəyinə və konstitusiyanın necə dəyişdirməli olduğuna qərar verəndə, üçüncü ölkələr isə əhalinin təhlükəsizliyini təmin edəcəklərinə söz verəndə, suverenlikdən danışmaq sadəcə gülünc olur. Vaşinqton dəhlizin açılmasını təklif edir, Avropa "sülh"dən danışır, amma reallıqda regional maraqları bölərkən bizi qapıdan kənarda qoyurlar. Siyasətçilərin, xüsusən də beynəlxalq siyasətçilərin sözlərinə inanmaq təhlükəlidir. Əgər bu sözlərin dəyəri olsaydı, Qərb Qarabağda olanların qarşısını alardı, sanksiyalar tətbiq edər, İsrail və Türkiyənin müharibədə iştirakını dayandırardı. Ancaq bunlar sadəcə sözlərdir".

Xaçikyan əsl məqsədin Ermənistanın Rusiyadan qoparıb məhv etmək üçün Türkiyəyə vermək olduğunu iddia edib: "Ermənistanın nə Avropa, nə də ABŞ üçün heç bir strateji əhəmiyyəti yoxdur. Əvəzində Türkiyə, İsrail və Azərbaycanla münasibətlərini qururlar. Ermənilər isə yüz il əvvəl olduğu kimi, ancaq boş vədlər alırlar. Ermənistan yeni kapitulyasiya və dövlətçiliyin itirilməsi istiqamətində sürətli tənəzzülü davam etdirir. Yeni müharibə olmayacaq: Ermənistan sadəcə olaraq tutulacaq. Amma, çıxış yolu var, bu da Ermənistanla Azərbaycan arasında davamlı sülhdür".

Stenford Universitetinin erməni əsilli politoloqunun mövqeyi bəllidir, bəs Ermənistanı idarə edənlər bu barədə nə düşünür? Ermənistan XİN rəhbəri Ararat Mirzoyan bildirib ki, Ermənistan Azərbaycanın regionda kommunikasiyaların qarşısının alınmasına yanaşmasında ekstraterritorial nəzarət elementlərindən narahatdır. "Suverenliyimizi müəyyən dərəcədə məhdudlaşdıran belə bir "dəhlizin" məntiqi bizim üçün qəbuledilməzdir", - deyə bildirib. Yəni, XİN rəhbəri yenə köhnə havalara oynayır. Yəqin, Ermənistanın 44 günlük müharibədə məğlubiyyətindən sonra hələ o vaxt Parlamentinin spikeri olan Mirzoyan meydanda ling edilənda başından ciddi zədə alıb. Hələ də keçmişlə - 2018-ci ilin ab-havası ilə yaşayır. Mirzoyanın sözlərinə görə, problemlərin həllinin ən qısa və effektiv yolu sülh sazişinin imzalanması və ratifikasiyasıdır. Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalansa, Avropa İttifaqının monitorinq missiyasına ehtiyac aradan qalxacaq, bunun nəticəsində sərhədyanı rayonların sakinləri özlərini təhlükəsiz hiss edəcəklər. "Hazırda Avropa İttifaqının mülki missiyası Ermənistan və Azərbaycan arasında sərhəddə monitorinq aparır.Misiyanın mandatı, o cümlədən onun son məqsədi Ermənistan və Azərbaycan arasında sabitliyi və sülhü möhkəmləndirməkdir. Əgər sülh sazişi imzalansa, demarkasiya prosesini davam etdirsək və bütün bunların nəticəsində sabitliyə nail olsaq, o zaman həm Ermənistan, həm də Azərbaycan tərəfində sərhədyanı bölgələrdə yaşayan insanlar özlərini təhlükəsiz hiss edəcək, öz gündəlik həyatlarını sakit şəkildə təşkil edə biləcəklər, bundan sonra monitorinq missiyasına ehtiyac qalmayacaq", - deyə Mirzoyan Türkiyənin NTV telekanalına müsahibəsində bildirib.

## Aİ-nin Ermənistandakı missiyası haqqında

Aİ-nin Ermənistandakı Mülki Missiyası (EUMA) 20 fevral 2023-cü ildə Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (CSDP) çərçivəsində iki illik mandatla fəaliyyətə başlayıb. 30 yanvar 2025-ci ildə missiyanın mandatı daha iki il uzadılıb. EUMA Kafan, Gorus, Cermuk, Dərələyəz (Yeghegnadzor),Basarkeçər və Göyçədəki altı əməliyyat bazasından nəzarət həyata keçirirlər. Missiyanın məqsədi Aİ-nin dəstəyi ilə Ermənistanın sərhədyanı rayonlarında guya vəziyyəti sabitləşdirmək, münaqişəyə məruz qalmış ərazilərdə insanların etimadını və təhlükəsizliyini gücləndirmək və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına şərait yaratmaqdan ibarətdir. Amma bu, yalnız kağız üzərindədir, onlar əsasən kəşfiyyat işləri aparır, Azərbaycan Ordusunun mövqelərini daimi olaraq izləyir və məlumatı yuxarı instansiyalara məruzə edirlər.

Bu il fevralın 20-də Ermənistanda iki illik mandatla 100 nəfərdən ibarət yeni Avropa missiyası yerləşdirilib. Aİ missiyasının mülki olduğu elan edilsə də, onun 50 üzvü silahlı jandarmdır. Missiyanın məqsədi Ermənistanın "sərhədyanı ərazilərində sabitliyi təşviq etmək, yerlərdə etimadın yaradılması və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün" əlverişli şərait yaratmaqdır. Missiyanın rəhbəri Markus Ritterin bəyanatları Aİ-nin bölgədəki niyyətlərinin və hərəkətlərinin dağıdıcılığını təsdiqləyir. Üstəlik, Brüssel açıq şəkildə Ermənistanla Azərbaycan arasında etimadın yaradılmasında və mövqelərin yaxınlaşmasında maraqlı deyil. Amma "Deutsche Welle"yə müsahibəsində missiyanın fəaliyyətindən danışan Ritter qeyd edib ki, "onlar müdaxilə edə bilməzlər, onların ixtiyarında yalnız durbin və kameralar var". Onun sözlərinə görə, onlara Azərbaycan ərazisinə giriş qadağan edilib, ona görə də, məsələn, növbəti hücuma hazırlaşan zaman qoşunların hərəkətini aşkar edə bilmirlər.

Heç vaxt nizamlanmada vasitəçilik etməyənləri, heç vaxt əlavə dəyər gətirməyənləri, praktiki nəticələr əldə etməyənləri eşitmək çox vacibdir. Ancaq İrəvan və Bakını eşitmək vacibdir, bu, bütün bu problemin əsas hekayəsidir. Tərəflərdə bəzən diametral şəkildə zidd olan fərqli baxışlar var, ifrat fəsadlar və kəskinləşmə dövrləri var. Eyni zamanda, tərəflər razılığa gələ bilərlər, əsas odur ki, bu cür razılaşmalar və qarşılıqlı anlaşmalar üçün müvafiq ab-hava, zəmin yaradılması və bu qarşılıqlı anlaşmanın təşviq edilməsidir.

***V.VƏLİYEV***

# Evdən qaçdı, bəs sonra?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*

***Təkcə son bir ayın yox, ümumilikdə son illərin ən aktual problemlərindən biridir yeniyetmələrin evdən qaçması. Evdən qaçan yeniyetmələrin əksəriyyəti ailədaxili təzyiqdən və zorakılıqdan bu addımı atdığını deyir. Lakin araşdırmalar onu göstərir ki, əsasən rayonlardan qaçıb Bakıya gələn yeniyetmələrin evdən qaçmasına səbəb paytaxtda həyatın daha cazibədici və mühitin sərbəst olmasına inanmalarıdır.***







Evdən qaçan yeniyetmənin kimliyi müəyyən olunandan, tapılıb ailəsinə təhvil veriləndən sonra Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən icra hakimiyyətlərinə tapşırıqlar verilir, komitənin regionlarda olan mərkəzlərinin psixoloqları həmin ailələrlə işləyir. Əsas məsələ onların cəmiyyətə reinteqrasiyasıdır və reabilitasiya keçilməsi, əsasən də psixoloji dəstək göstərilməsidir. Əgər hüquqi dəstək varsa Komitə bu sahədə də kömək göstərir. Doğrudur, mərkəzi qurum olaraq bu barədə idarəetməni AQUPDK təşkil edir, amma yerlərdə İcra Hakimiyyətləri də bu istiqamətdə işləməlidir. Yerli icra və təhsil orqanları kontakt şəkildə iş apararaq daha yaxşı nəticə əldə edə bilərlər.

Yeniyetmələrin evdən qaçmasına, adətən, zorakılığın səbəb olmasını demək olar. Lakin bu yeganə səbəb deyil. Fiziki, mənəvi və ya iqtisadi asılılıq zəminində yaranan zorakılıq yeniyetməni evdən uzaqlaşdıran səbəblərdən biridir. Ailə böyükləri arasında baş verən zorakılığa şahid olan yeniyetmə bu səbəbdən evdən qaça bilər, amma uşaqların internetin, virtual dostların və çevrənin, habelə real çevrəsinin təsiri altına düşməsi faktı da var. Yalnış xəbərlərin təsirinə düşən yeniyetmələr var, hətta özünü öldürmə həddinə çatdırma halları da baş verir, bunu nəzərə alaraq internet təhlükəsizliyi ilə əlaqədar işlər də aparılır.

Yeniyetmələrin bəzilərinin ona uyğun olmayan mühitə, dini sektalara düşməsi və oradan təsirlənməsi halları da olur. Elə sektalar olur ki, yeniyetmə onun əhatəsinə düşür və ailəsindən uzaqlaşır, bu çevrə yeniyetmələrin beynini, düşüncəsini dəyişir, təhsildən uzaqlaşdırır. Məktəblərdə ciddi iş aparılmalıdır. Təhsil uşaqlara zorakılığın normal bir şey olmamasını tədris etməlidir, ailələrdə iş aparılmaldır.



Evdən qaçan uşaqlar arasında 13-15 yaşlı yeniyetmələr üstünlük təşkil edir. Onların hər biri fərqli səbəbdən evdən qaçır - kimisi evdəkilərlə yola gedə bilmir, kimisi ailə təzyiqini əsas gətirir, bəziləri də sırf azadlıq axtaranlardır. Səbəbi hər nə olur-olsun yetkinlik yaşına çatmayan şəxslərin evdən getmələri təhlükəlidir. Ev ən etibarlı sığınacaqdır.

Bir çox yeniyetmə ailədaxili münaqişələrdən uzaq qalmaq üçün evdən qaçmağa üstünlük verirlər. Evdən qaçmaq yeniyetmə üçün ciddi travma riski yaratmaqla yanaşı, valideynlərin də narahatlığına səbəb olur. Yeniyetməlikdə evdən qaçmağın səbəblərini ümumiləşdirdikdə onların həyəcan və macəra yaşamaq istəyi də tərəzidə ağır gəlir. Həmçinin, ailədə zorakılığa məruz qalma, onlayn çevrəsinin, filmlər, kompüter oyunlarının təsiri, ailəsinin uşağa maddi və mənəvi dəstək göstərməməsi, evdən qaçan bir dostunun hərəkətini təkrarlamaq istəyi də evdən qaçmaq səbəbi ola bilər.

Təcrübə göstərir ki, evdən qaçan uşaqlar çox vaxt yaşadıqları macəranı maraqlı, həyacanlı günlər kimi ifadə edir. Yaşlarından qaynaqlanan səbəbə görə, onlar evdən kənarda onları gözləyən təhlükə barədə çox az düşünürlər. Bəzən təhlükəni hiss edəndə və buna görə evə geri dönməyə çalışanda başlarına bədbəxt hadisələr də gələ bilir.



Etiraf etmək yerinə düşər ki, pandemiyadan sonrakı dövrdə Azərbaycan ailələrində tarix boyu görünməmiş gərginlik müşahidə edildi. Müşahidələr və statistika da göstərir ki, bizim ailələrdə heç vaxt bu qədər evdənqaçma halları, qətl, zorakılıq baş verməyib. Amma məlum əvəqapanma prosesindən sonra ilədaxili intizam anlayışı yox oldu, əvəzində azadlıq və demokratiya haqqında danışa-danışa ailələri parçalayan cürbəcür institutlar peyda olub. Bu istiqamətdə KİV-in və cəmiyyətin "rolu" da danılmazdır. İndi əksər media orqanı ailə məsələsinə həssas yanaşmır, ailə sirləri reytinq uğruna faş edilir, bütün bunlar edilərkən isə uşaqların həssaslığı, yeniyetmələrin dəyişkən psixoloji vəziyyətləri nəzərə alınmır.

Hamıya məlumdur ki, qəzet və saytlarda, bəzən televiziya kanallarında internetdə tanış olduğu oğlanla qaçan yeniyetmə qızlar barədə olduqca çox məlumat yayılır. Uşaqların evdən qaçmasında günahkar isə internet amili hesab edilir. Yaşlı nəsil qətiyyətlə əmindir - internet yeniyetmələri yoldan çıxarır. Gənc nəsil isə internetin bu məsələdə günahsız olduğunu deyir. Məsələ burasındadır ki, gənc nəsil evdən qaçmaq istəyən yeniyetmənin internetsiz də bir yol tapa biləcəyinə əmindir. Ata-ana tv proqramlarına çıxıb itkin qızını axtarır, efirdə onu xeyli ağladandan, göz yaşlarını reytinq üçün sümürəndən sonra qızına zəng edib efirə qoşurlar. Qızı da elə o zəngdə, o efirə ötkəm-ötkəm "məni axtarmayın, mən sevgimin dalınca getmişəm" deyir. 14-15 yaşlı yeniyetmədir və bu yaşda evdən sevgi üçün qaçır. Günahı kimdə axtaraq?

Televiziyanın nə qədər təsirli bir vasitə olduğu hamıya məlumdur. O cəmiyyətin istiqamətini də müəyyənləşdirə bilir, əxlaqını da. Yaxşı örnək də ola bilir, pis örnək də. Televiziya verilişlərinin cəmiyyətə töhfə verəcək dövrləri yaxın keçmişdə qaldı. Əvvəl cəmiyyətin yarasını sarıyan televiziya verilişləri indi yaranın qaysağını qopartmaqla məşğuldur. Ümumiyyətlə, mənəvi dəyərlərə uyğun, cəmiyyəti düzgün istiqamətə yönəldən, gənclərimizi gələcəyə yaxşı hazırlayan televiziya proqramları yox dərəcəsindədir. Daha ailəlikcə, böyüklü-kiçikli izlədiyimiz intellektual şoular yoxdur efirdə, əvəzində əxlaqdan yoxsul, yüngül şoular ayaq açıb efirə. O şouların əks-təsirini də evdən qaçan uşaqların, uşağını atıb başqa kişi ilə yaşayan qadınların, qızı yaşda sevgilisi ilə qaçan kişilərin timsalında görürük.

Əgər belə davam edərsə ailəsindən qaçan uşaqlar artacaq, başqasına fiziki zorakılıq tətbiq edən yeniyetmələr çoxalacaq, ailə intizamı, bütövlüyü məsələsi tarixə dəfn ediləcək. Ailələrin sosial-psoxoloji vəziyyəti barədə ciddi sosial araşdırmalar edilməli, problemlə birbaşa peşəkarlar işləməlidir. Bunun üçün xüsusi komissiyalar yaradıla bilər, komissiyalar icra hakimiyyətlərinin strukturunda fəaliyyət göstərə bilər, onlar ailələr ilə işləyə bilərlər. Bununla bağlı metodika hazırlanmalıdır, iş mexanizmi qurulmalıdır. Bu vəsaiti isə konkret olaraq ölkənin sosial-psixoloji durumuna uyğun formada peşəkarlar hazırlanmalıdır, nəinki yad layihələr və proqramları tətbiq etmək.

***Lalə Mehralı***

SƏS
16 aprel
2025-ci il

# İşə düzəltmə şirkətləri nə dərəcədə etibarlıdır?



## AYDINLIQ GƏTİRİLDİ

”Qanunla ölkəmizdə işə düzəltmə vasitəçiliyini yalnız hüquqi şəxslər həyata keçirə bilər. Lakin bunun üçün xüsusi lisenziya və ya rəsmi icazə tələb olunmur. Hazırda bu sahədə çoxsaylı fırıldaqçılıq halları müşahidə olunur. Fiziki şəxslər ofis açaraq insanları aldadır, müxtəlif adlar altında - anket pulu və ya digər bəhanələrlə vəsait toplayırlar. Məbləğlər adətən böyük olmasa da (30-40-50 manat), nəticədə iş axtaran şəxs nə iş tapır, nə də pulunu geri ala bilir”. Bu sözləri SİA-ya açıqlamasında ”Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası”nın İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov deyib.

Sahib Məmmədov sözlərinə belə davam edib: ”Bu kimi hallarda vətəndaşlar çox zaman hüquq-mühafizə orqanlarına müraciət etmirlər. Səbəbi isə odur ki, az məbləğli vəsait üçün aylarla çəkə biləcək proseslərə girmək istəmirlər. Amma bu hallar olduqca çoxdur və sistematik xarakter alıb.

Digər tərəfdən, nisbətən qanuni və normal fəaliyyət göstərən, yəni həm işəgötürənlə, həm də iş axtaranla əməkdaşlıq edən, vasitəçilik funksiyasını yerinə yetirən kommersiya hüquqlu şirkətlər də mövcuddur. Onların fəaliyyəti nisbətən daha şəffaf görünür.

Qeyd etmək lazımdır ki, dövlət orqanları, xüsusilə də DMA də bu sahədə vasitəçi rolunu oynayır və onlar bu xidmətə görə vətəndaşdan heç bir ödəniş ala bilməzlər. Lakin bizdə çox hallarda kommersiya vasitəçiləri həm işəgötürəndən, həm də işçidən ödəniş tələb edirlər ki, bu da əslində beynəlxalq təcrübəyə ziddir. Xarici ölkələrdə bu cür vasitəçilik fəaliyyəti ilə məşğul olan qurumlar olduqca ciddi şəkildə nəzarətdə saxlanılır. Onlar yalnız işçini tapıb işəgötürənlə tanış etdirməklə kifayətlənmirlər, həmçinin işçini peşə baxımından hazırlayır, lazım gəldikdə istiqamətləndirici təlimlər keçirirlər. Hazır işçi şirkətə təqdim olunur və bunun müqabilində ödənişi işəgötürən şirkət edir”.

***Ayşən Vəli***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bir gündə bank kartlarından 14 min manata yaxın pul oğurlandı



Ötən gün vətəndaşların bank kartlarından 13 818 manat oğurlanıb. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, vətəndaşların bank kartlarından oğurluqlar davam edir. ”Kartın üzərindəki CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, digər sizə məxsus sistemlərə giriş üçün lazım olan loqin və şifrələr, kartın PİN kodu məxfi məlumatlardır. Bu məlumatları naməlum şəxslərə verdiyiniz halda hesabınızda olan pullar, yaxud pul yoxdursa, kredit formasında Sizə zərər vuracaqlar. Aprelin 14-də ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 4000, 3482, 1621, 1500, 750, 650, 537, 340, 300, 300, 220, 118 manat pul vəsaitləri bank kartlarından oğurlanıb.

Bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edirik. Qəti formada şəxsi bank məlumatlarını naməlum şəxslərə verməyin, təhlükə var”.

EKSPERT FİKRİ

# “Banklara borcun çox olması insanların sosial həyatına birbaşa təsir edir"

”Ümumiyyətlə əhalinin borclanması, banklara borcun çox olması onların sosial həyatlarına birbaşa təsir göstərir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Ruslan Atakişiyev deyib.

Onun sözlərinə görə, məsələ ondadır ki, əhali daha çox istehlak kreditlərindən borclanırlar - soyuducu, məişət əşyaları və s. alırlar: ”Bunun nəticəsində bu aldıqları əşyaları da öz gəlirlərindən daha çox əldə etdikləri zaman onların sosial vəziyyətlərinə təsir göstərməyə başlayır. İnsanlar özləri maariflənməlidir, insanlar özləri öz istəklərini cilovlamalıdırlar. Çünki belə bir deyim var ”ya istəklərinizə uyğun gəlirlərinizi artırmalısınız, ya da istəklərinizi azaltmalısınız”. Bu baxımdan da insanlar gəlirlərinə uyğun istəklərini azaltmadıqları zaman hər bir şeyi kreditlə, hər bir şeyi vədəli alış ilə aldıqları




zaman bu yığılır. Çox vaxtda nəticədə pulu ödəyə bilmirlər. Bizim cəmiyyətdə gələcəyə doğru borclanmaq meyili çox yüksəkdir. İnsanların əksəriyyətində belə düşüncə varki gələcək indikindən daha yaxşı olacaq. Gələcəkdə daha çox gəlir əldə edəcək. Amma bu qədər borclanmağın sonunda gözlənildiyi kimi yüksək gəlirlər əldə olunmur. Nəticədə həmin şəxslər aldıqları borcu ödəyə bilmirlər. Sosial təsir nədən ibarətdir? Ailənin digər xərclərinin vaxtında ödənilməsində problem yaranır. Bəzən tam təminatlı şəkildə alınmasında, kommunal xərclərin vaxtında ödənilməməsində, ailənin övladlarının təhsili ilə bağlı ödənişlərin edilməməsi sosial gərginliyə gətirib çıxarır”.

***Qumral Bahadırqızı***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**